QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 173 (5161) **23 sentyabr** 2016-cı il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

# Bizim məqsədimiz müstəqillikdir, azadlıqdır, xalqın firavanlığıdır

*Prezident İlham Əliyev: "Bəzi xarici dairələrin məqsədi isə tam başqadır - bizə diktə etmək, Azərbaycanı alətə çevirmək, Azərbaycan xalqının iradəsini qırmaq və ondan sonra Azərbaycan kimi qüdrətli ölkədən öz məqsədləri üçün istifadə etməkdir"*

Səh 2



4

"Mişel Forstun hesabatı Azərbaycan reallığını əks etdirmir, qərəzlidir və sifariş xarakterlidir"



5

"Venesiya Komissiyasının rəyi Azərbaycan üçün əhəmiyyət kəsb etmir"



4

"Avropa İttifaqının əksər üzvləri Azərbaycan ilə yaxın münasibət qurduqlarına görə fəxr edirlər"



# Bizim məqsədimiz müstəqillikdir, azadlıqdır, xalqın firavanlığıdır

*Prezident İlham Əliyev: "Bəzi xarici dairələrin məqsədi isə tam başqadır - bizə diktə etmək, Azərbaycanı alətə çevirmək, Azərbaycan xalqının iradəsini qırmaq və ondan sonra Azərbaycan kimi qüdrətli ölkədən öz məqsədləri üçün istifadə etməkdir"*



***Bu gün Azərbaycan sürətli inkişafı ilə regionun ən güclü dövləti kimi bütün siyasi-iqtisadi proseslərdə söz sahibinə çevrilib. Azərbaycan transmilli layihələr reallaşdırır, qlobal təhlükəsizlik proseslərində iştirak edir, enerji təhlükəsizliyi probleminin həllində vacib rol oynayır. Lakin Azərbaycanın bu uğurlarından narahat olan qüvvələr də mövcuddur və onlar daim ölkəmizə qarşı çirkin kampaniya aparırlar. Bütün səviyyələrdə çalışırlar ki, Azərbaycanda siyasi sabitliyi pozsunlar və bununla da cəmiyyətdə çaşqınlıq yaratsınlar.***

O da aydındır ki, dünyada müxtəlif proseslər gedir, qloballaşma adı ilə, faktiki olaraq, eyniləşmə siyasəti aparılır, kütləvi informasiya vasitələri ilə müxtəlif təxribatlar ortaya atılır. Ona görə, Azərbaycan cəmiyyəti bundan sonra da çox möhkəm, milli, mənəvi dayaqlar əsasında inkişaf etməlidir. Bununla bağlı fikirlərini cəmiyyətə çatdıran Prezident İlham Əliyev deyir ki, bu gün bizim siyasətimizin təməlində milli maraqlarımız, milli dəyərlərimiz, Azərbaycan dəyərləri dayanır. Bu dəyərlər hər bir Azərbaycan vətəndaşı üçün hər şeydən üstün olmalıdır. Elə etməliyik ki, gələcək nəsil də bu istiqamətdə inkişaf etsin. Ona görə də, vətənpərvərlik, Vətənə olan bağlılıq, milli-mənəvi dəyərlər məktəblərdə mütləq geniş vüsət almalıdır, müəllimlər də bu istiqamətdə daha fəal iş aparmalıdırlar. Xüsusilə, nəzərə alsaq ki, xalqımız çox istedadlı xalqdır, dünya xəzinəsinə çox böyük töhfələr veribdir, tarix boyu bizim görkəmli nümayəndələrimiz dünya üçün böyük işlər görmüşlər: "Bu gün Azərbaycan dövləti güclü dövlətlər sırasındadır. Bu il biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik və nəticələr də göz qabağındadır. Bu gün biz bütün istiqamətlər üzrə inkişafdayıq, güclü iqtisadiyyat qurmuşuq, güclü sosial sahə yaratmışıq, 3 mindən çox məktəb, 600-dən çox xəstəxana - bütün bunlar Azərbaycan dövlətinin gördüyü işlərdir. Bu gün Azərbaycan dünya miqyasında seçilən ölkələrdəndir ki, öz daxili imkanlarına arxalanaraq, irəliyə gedir. Biz heç bir yerdən yardım almırıq, buna ehtiyac da yoxdur, öz hesabımıza yaşayırıq və dünyada öz hesabına yaşayan ölkələrin sayı o qədər də çox deyil. Ona görə də, hər bir Azərbaycan vətəndaşı haqlı olaraq, fəxr etməlidir ki, müstəqil dövlətdə yaşayır. Bu gün bizim taleyimiz öz əlimizdədir. Biz əsrlər boyu başqa dövlətlərin tərkibində yaşamışıq və o dövrü indiki dövrlə müqayisə edəndə, görürük ki, ən sürətli inkişaf dövrü müstəqillik dövrüdür. Nəyə görə? Çünki taleyimiz öz əlimizdədir".

Azərbaycan istər regionun, istərsə də digər bölgələrdə yerləşən ölkələrdən fərqli olaraq, müstəqil siyasət yürüdür. Dövlətin və xalqın taleyi dünyadakı hansısa digər qüvvələrdən asılı deyil. Prezident İlham Əliyev çıxışlarında qeyd edir ki, bizim işimizə qarışmaq istəyənlərin sayı da az deyil: "Bu illər ərzində müxtəlif dövrlərdə bizim işimizə qarışmaq istəyənlər öz məqsədlərini güdürdülər. O məqsədlər bizim məqsədlərlə üst-üstə düşmür. Bizim məqsədimiz müstəqillikdir, azadlıqdır, xalqın firavanlığıdır. Bəzi xarici dairələrin məqsədi isə tam başqadır - bizə diktə etmək, Azərbaycanı alətə çevirmək, Azərbaycan xalqının iradəsini qırmaq və ondan sonra Azərbaycan kimi qüdrətli ölkədən öz məqsədləri üçün istifadə etməkdir. Bu isə bizim üçün fəlakət olar. Biz başqa ölkələrin təcrübəsini, yaxın tarixini görürük. O ölkələr ki, xaricdən idarə olunur, o ölkələr dağıdılır. O ölkələr ki, xarici mənfi təsirə qarşı müqavimət göstərmir, o ölkələr, xalqlar məhv olur. Son 10 il ərzində Yaxın Şərqdə milyonlarla insan həlak olub. On milyonlarla insan əlil, qaçqın, köçkün olub, ölkələr və bütün infrastruktur dağıdılıb. Bunu edənlər xarici qüvvələrdir. Ona görə bizim gənclər də, müəllimlər də bu reallığı bilməlidirlər. Bizə təzyiqlər ona görə artır ki, biz öz yolumuzla gedirik, heç kimin qarşısında baş əymirik, özümüzü ləyaqətlə aparırıq, milli maraqlarımızı qoruyuruq, Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tuturuq və bu siyasət davam etdirilməlidir. Bu gün bu siyasət var, bu siyasəti mən aparıram və heç bir qüvvə məni bu yoldan döndərə bilməz. Mən istəyirəm ki, burada, bu mərasimdə iştirak edən gənclər də gələcəkdə bu yolla getsinlər. Çünki gələcəkdə ölkəmizi gənclər idarə edəcəklər. Ölkələrin inkişafını şərtləndirən onun insanlarıdır. Ölkəni hansı insanlar idarə edirlərsə və xalq onları dəstəkləyirsə, bax, o siyasət də aparılır. Ona görə, biz həmişə müstəqil olmalıyıq. Heç vaxt müstəqilliyimizi əldən verməməliyik. Müstəqillik deyəndə, mən rəsmi atributları nəzərdə tutmuram. Müstəqil siyasət müstəqilliyin əsas amilidir və belə olan halda, həmişə inkişaf, əmin-amanlıq olacaq, Azərbaycan xalqı rahat, təhlükəsizlik şəraitində yaşayacaq, necə ki, bu gün yaşayır. Bizim siyasətimiz bundan ibarətdir. Hesab edirəm ki, bizim nümunəmiz bir çox ölkələr üçün də cəlbedicidir. Ona görə, bu gün dünyada Azərbaycanı böyük rəğbətlə qarşılayırlar, bizə inanırlar, sözümüzə inanırlar. Ona görə də, biz ləyaqətli siyasət aparırıq və xalqın maraqlarını həmişə müdafiə edirik. Mən istəyirəm ki, gənclər də bu istiqamətdə inkişaf etsin. Əminəm ki, belə də olacaq".

Əlbəttə ki, xarici anti-milli qüvvələr heç bir halda istəklərinə çatmayacaqlar. Azərbaycanda siyasi sabitliyi poza, xalqın iradəsini qıra bilməyəcəklər. Çünki Azərbaycanı canından və qanından keçərək, qoruyan gəncliyi var. Bütün dünya bunu bu ilin aprel ayının 2-5-də canlı şəkildə gördü. Azərbaycan gəncləri düşmənə elə bir zərbə vurdu ki, bir daha hansısa düşmən qüvvə bizimlə üz-üzə gəlməyə cəhd edə bilməyəcək. Azərbaycanın dövlət bayrağını Ağdərə, Füzuli və Cəbrayıl rayonlarının bir hissəsində qaldıran gənclik heç bir zaman ölkənin anti-Azərbaycan qüvvələrinin əlində alət olmasına imkan verməyəcək.

***"SƏS" Analitik Qrupu***

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycanda pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, ölkədə kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi, pambıq istehsalına əhalinin marağının artırılması və sosial rifahının daha da yaxşılaşdırılması məqsədilə müəyyən edilsin:

- emal müəssisələrinə satılmış hər kiloqram xam pambığa görə pambıq istehsalçılarına 0,1 manat subsidiya nəzərdə tutulur;

- bu sərəncamla nəzərdə tutulan subsidiya 2016-cı ildə istehsal olunan və emal müəssisələrinə satılmış xam pambığa da şamil edilir. Nazirlər Kabinetinə emal müəssisələrinə satılmış hər kiloqram xam pambığa görə pambıq istehsalçılarına subsidiyanın verilmə qaydasını Azərbaycan Prezidenti ilə razılaşdırmaqla 15 gün müddətində müəyyən etmək; bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb. Maliyyə Nazirliyinə bu Sərəncama uyğun olaraq maliyyələşməni təmin etmək tapşırılıb.

* * *

Prezident İlham Əliyev Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının üzvlərinə fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Ağaverdi Paşayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə Ağaverdi Ağa Əli oğlu Paşayev "Şöhrət" ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev İsgəndər Cavadova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Mingəçevir şəhərində çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi və təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səuda təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: "Səudiyyə Ərəbistanının milli bayramı - Krallıq elan edilməsi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram. İnanıram ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir. Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Səudiyyə Ərəbistanının qardaş xalqına daim sülh və rifah diləyirəm".

Dövlətimizin başçısı Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi, Baş nazirin müavini, daxili işlər naziri Məhəmməd bin Nayif bin Əbdüləziz Al Səudu da təbrik edib. Məktubda qeyd olunur: "Səudiyyə Ərəbistanının milli bayramı - Krallıq elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm. Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram".

# Qırğızıstan portalı Prezident İlham Əliyevin Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətini qəbul etməsinə dair material yayıb

***Qırğızıstanın "Ca-news" portalı Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətini qəbul etməsi ilə bağlı geniş material yayıb. Materialda dövlətimizin başçısının görüşdəki çıxışından fikirlərə yer verilib.***

Azərbaycan Prezidenti görüşün əvvəlində bildirib: "Avropa Parlamentinin bir il bundan əvvəl qəbul etdiyi qətnamə bizim münasibətlərimizdə ciddi geriləmə yaratdı. Bu, çox böyük təəccüb doğurdu. Biz Azərbaycanda bunu çox düşməncəsinə, qeyri-düzgün, səhv informasiya və qərəzə əsaslanan addım və ölkəmizin reputasiyasına zərər vermək cəhdi kimi qəbul edirik. Buna aydınlıq gətirmədən irəliləmək və gələcək işlərimizi planlaşdırmaq çətin olacaq. Məndə bununla bağlı sənəd var".

Qətnamədə guya son bir neçə ildə Azərbaycanda insan haqlarının vəziyyətinin pisləşməsi ilə bağlı fikrə münasibət bildirən dövlət başçısı deyib: "Bu, doğru deyil. Azərbaycanda insan haqları ilə bağlı vəziyyət yaxşılaşır. Ölkəmiz demokratik inkişafa və insan haqlarının qorunması işinə sadiqdir. Düşünürəm ki, burada insan haqlarının qorunması ilə bağlı vəziyyət daha müsbət qiymətləndirmə tələb edir. Burada bilmirəm qəsdən və ya yanlışlıqla səhv informasiyaya əsaslanan bir neçə məsələ var. Onlardan biri odur ki, jurnalistlər və vətəndaş cəmiyyəti nümayəndələri davamlı hədə və təqiblərə məruz qalırlar. Onların arasında Meydan TV-nin direktoru Emin Milli ölümlə hədələnib. Bu, səhvdir və yalandır. O, heç vaxt ölümlə hədələnməyib. Bilmirəm niyə burada belə yazılıb. Ola bilsin ki, bu, yenə də Azərbaycan əleyhinə kampaniyanın bir hissəsidir".

Sənəddə guya 2006-cı ildən bu yana dinc nümayişçilərə Bakının mərkəzində nümayişlər keçirməyin qadağan olunması ilə bağlı məsələni şərh edən dövlət başçısı bildirib: "Yalandır. Nümayişlər qadağan olunmayıb. Sərbəst toplaşma azadlığı ölkəmizdə tam şəkildə təmin olunur. 2006-cı ildən bu yana, 2006-cı ildən əvvəl və indi Bakının mərkəzində müxalifət azad şəkildə mitinqlər keçirib. Onlar bir neçə yüz adam toplayıblar. İnsanların niyə bu nümayişlərə getməməsi ayrı məsələdir. Lakin onlar dinc, azad olub və hər kəs, o cümlədən səfirlik bunu sübut edə bilər. Beləliklə, daha bir yalan.

Daha bir məsələ, guya jurnalist Rasim Əliyev sosial şəbəkələr vasitəsilə Prezident Əliyevi tənqid etdiyinə görə davamlı hədə və təhdidlər alandan sonra amansızcasına


Реклама Пресс-центр Подписка Ой Создать магазин 16+ Регистрация Вход

CA-News.org мобильная версия
центральноазиатская новостная служба
22 сентября 2016
поиск...
[РУС] [ENG] [КЫРГ]
Под одним небом... На одном сайте...

ГЛАВНАЯ АЗИЯ И МИР КАЗАХСТАН КЫРГЫЗСТАН МОНГОЛИЯ ТАДЖИКИСТАН ТУРКМЕНИСТАН УЗБЕКИСТАН
экономика общество политика новости компаний происшествия спорт анализ и комментарии жизнь в Центральной Азии

**Ильхам Алиев раскритиковал резолюцию Европарламента о права человека в Азербайджане**

Азия и мир, политика | 14:10, 21 сентября 2016 | Просмотров: 1001

**CA-NEWS (CA)** - Резолюция, принятая год назад Европейским парламентом в отношении Азербайджана, создала серьезный регресс в отношениях и вызвала большое удивление, сказал во вторник Президент Азербайджана Ильхам Алиев на встрече с делегацией Комитета парламентского сотрудничества Европейский союз-Азербайджан, прибывшей в Баку.

"Мы в Азербайджане восприняли это как шаг, основанный на враждебной, неточной, ошибочной информации и предвзятости, и попытку нанести ущерб репутации страны. Не внеся ясность в это, продвигаться и планировать будущую работу будет сложно. У меня есть документ в связи с этим", - цитирует Trend слова главы Азербайджана.

Комментируя текст резолюции, в котором говорится о том, что за последние несколько лет в Азербайджане ухудшилась **ситуация с правами человека**, Алиев сказал:

"Это неправда. В Азербайджане улучшается ситуация с правами человека. Наша страна привержена демократическому развитию и делу защиты прав человека. Полагаю, что ситуация в связи с защитой прав человека здесь требует более положительной оценки. Здесь несколько вопросов, не знаю, умышленно или ошибочно опирающихся на ложную информацию. Один из них то, что журналисты и представители гражданского общества постоянно подвергаются угрозам и преследованиям. В их числе - директору Meydan TV Эмину Милли угрожали смертью. Это ошибка и ложь. Ему никогда не угрожали смертью. Не знаю, почему здесь так написано. Может быть, опять часть антиазербайджанской кампании", - сказал глава государства.

Остановившись на пункте о **запрете шествий с 2006 года**в центре Баку, он заявил:

"Ложь. Шествия не запрещены. Свобода собраний в стране обеспечивается в полной степени. С

Доступно Google play CA news

КУРС ВАЛЮТ

| | | | |
|---|---|---|---|
| 76.67 | 68.77 | 10.29 | 1.07 |
| 377.80 | 338.96 | 50.81 | 5.26 |
| 6.85 | 6.26 | 1.01 | 0.12 |
| 3286.53 | 2888.39 | 446.81 | 42.81 |
| 3.90 | 3.50 | 0.52 | 0.05 |

точка зрения

Когда станет ясно, что переход в эпоху «после Ислама Каримова» завершился, Шавкат Мирзиёев будет вести самостоятельный и независимый курс, - эксперты

Экономика Узбекистана остро нуждается в реформах, - эксперт

На юбилейной встрече глав СНГ в Бишкеке произошел только один открытый конфликт, - Lenta.ru

döyülərək Bakıda xəstəxanada dünyasını dəyişib. Bu, məni cinayət törətməkdə birbaşa ittiham etməkdir. Mən bunu yazanları məhkəməyə verə bilərəm. Təəssüf ki, idman xəbərləri yazan jurnalist Rasim Əliyev faciə nəticəsində dünyasını dəyişib. O, bəzi hərəkətlərinə görə tənqid etdiyi bir futbolçunun qohumları və fanatları tərəfindən döyülüb. Onlar onu döyüblər və bu, bədbəxt hadisə olub. Bunun bizimlə heç bir əlaqəsi yoxdur. O, heç vaxt tənqid etməyib və hətta heç kim bu şəxsi tanımırdı. Bu, qəsdən manipulyasiya, mənim bununla əlaqəmin olmasına dair ittihamdır".

Dövlət başçısı 2015-ci ilin iyulunda ATƏT-in Bakıdakı ofisinin bağlanması ilə əlaqədar bunları diqqətə çatdırıb: "Bəli, buna xitam verilib, lakin məlumat üçün deyim ki, bunun səbəbi olub. ATƏT ofisinin yerli nümayəndəsi Azərbaycan əsilli Fransa vətəndaşı, Fransanın Xarici İşlər Nazirliyində çalışan yeganə azərbaycanlı idi. O, çox məşhur bir ailənin nümayəndəsidir. Onun mənsub olduğu nəslin nümayəndələri 1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Demokratik Respublikasının yaradıcılarından olub. Bu ailəyə Azərbaycanda çox hörmətlə yanaşılır. Bu şəxs Azərbaycanda cəmi bir il fəaliyyət göstərəndən sonra iş otağında mənimlə fotosu olduğuna görə onu daimi komitənin iclasında günahlandıran ABŞ-ın ATƏT-dəki səfiri Baerin ciddi müdaxiləsi nəticəsində işdən azad olunub. Məndə olan məlumata görə, onlar Fransa hökumətinə təzyiq göstəriblər və ATƏT-in buradakı nümayəndəsi Şahtaxtinskiyə heç bir izahat verilmədən o, işdən azad olunub. Onun karyerasına son qoyuldu, o, Fransa Xarici İşlər Nazirliyindən çıxarıldı. Sadəcə mənimlə fotosu olduğuna görə. Əgər ABŞ-ın ATƏT-dəki nümayəndəsinin fikrincə mənimlə şəkil çəkdirmək cinayətdirsə biz nədən danışa bilərik?! Mən nə dedim? Mən dedim ki, əgər Şahtaxtinski işdən azad olunsa ofis bağlanacaq. Mən onlara xəbərdarlıq etdim, onlar qulaq asmadılar və biz bunu etdik. İndi onlar ofisin fəaliyyətini bərpa etmək istəyirlər. Mən şərt qoydum. Şahtaxtinskini geri qaytarın, ədaləti, onun karyerasını bərpa edin və o zaman biz ofisi yenidən açarıq. Bütün bunların arxasında duran məsələ bundan ibarətdir".

"Freedom House"la baökl məsələyə toxunan Prezident bildirib: "Freedom House" Azərbaycanın azad olmadığını, internetin qismən azad olduğunu, son 10 ildə bütün Avrasiyada demokratik idarəetmədə ən çox geridə Azərbaycanın qaldığını hesab edir. Təsəvvür edirsiniz? Bu, tamamilə gülüncdür və yəqin ki, şərh etməyə dəyməz. "Freedom House"a gəlincə. "Freedom House" ermənipərəst mövqe tutduğuna və Azərbaycana davamlı hücumlar etdiyinə görə ölkəmizin onunla heç bir əlaqəsi olmayan təşkilatdır. Uzun illər "Freedom House"un rəhbəri müxtəlif səbəblər üzündən Dövlət Departamentindən qovulmuş və Azərbaycanın ən fəal tənqidçilərindən birinə çevrilmiş Kramer olub. Deyim ki, "Freedom House"un hesabatlarının bizim üçün heç bir əsası yoxdur və bu təşkilatın bu sənəddə qeyd olunması məndə təəccüb doğurur. Bu, qeyri-hökumət təşkilatıdır, yüzlərlə belə təşkilat müxtəlif hesabatlar dərc edir. Avrasiyada ən böyük geriləmənin Azərbaycanda olduğunu deməsi bu təşkilatın və Avropa Parlamentinin Azərbaycana münasibətini nümayiş etdirir".

Görüşün sonunda Prezident Avropa Parlamentinin 2015-ci ildə Azərbaycanda parlament seçkilərini müşahidə etmək üçün missiya göndərməkdən imtina etməsi ilə bağlı məsələyə də toxunub: "Siz imtina etdiniz, digərləri isə etmədi. Avropa Şurası Parlament Assambleyası gəldi, seçkiləri müşahidə etdi və çox müsbət bəyanat verdi. Beləliklə, Avropa Parlamentinin iştirak etməməsi heç nəyi dəyişmədi, nəticələrə və müsbət rəyə təsir etmədi. Həmçinin bir çox başqa məsələlər...

Material Prezident İlham Əliyevin bu fikirləri ilə bitir: "İndi vəziyyət belədir. Faktiki olaraq bir ildir heç bir əlaqəmiz yoxdur. Bu, bizim ucbatımızdan baş verməyib".

***Qulu Kəngərli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Bişkek***

# Həştərxanda "Xəzər mediaforumu-2016" keçirilir

***Sentyabrın 22-də Rusiyanın Həştərxan şəhərində İkinci "Xəzər mediaforumu-2016" işə başlayıb. Tədbirdə Azərbaycanı rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadənin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndə heyətinin üzvləri əvvəlcə ümummilli lider Heydər Əliyevin Həştərxanın mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar. Rusiya Federasiyasının Rabitə və Kütləvi Kommunikasiyalar Nazirliyinin dəstəyi ilə keçirilən, Azərbaycan, Rusiya, İran, Qazaxıstan, Türkmənistan nümayəndə heyətlərinin qatıldığı forumda 250-dən çox KİV mütəxəssisi iştirak edir.

Azərbaycan nümayəndə heyəti açılış mərasimində böyük təqdimat proqramı ilə çıxış edib. Tədbirdə Azərbaycanın turizm potensialına, multikulturalizm ənənələrinə, idman, ekologiya sahələrində ölkəmizdə



görülən işlərə həsr olunmuş videoçarxlar təqdim olunub. Azərbaycan Dövlət İnformasiya Agentliyinin baş redaktoru Yaşar Quluzadə açılış mərasimində çıxış edərək AZƏRTAC barədə məlumat verib. Agentliyin fəaliyyətinə həsr olunmuş videotəqdimat forumda maraqla qarşılanıb. Dörd gün davam edəcək forumda Xəzəryanı dövlətlərdə medianın fəaliyyətinə dair məruzələr dinləniləcək, informasiya siyasəti, internet jurnalistikası, KİV-lər üçün kadr hazırlığı və digər mövzularda "dəyirmi masa"lar və ustad dərsləri keçiriləcək, təcrübə mübadiləsi, media-biznes və müasir texnologiyaların tətbiqi istiqamətində müzakirələr aparılacaq. Forumun təşkilatçılarının fikrincə, son vaxtlar sıx işgüzar, mədəni, iqtisadi və ticarət əlaqələri qurmuş Xəzər hövzəsi dövlətlərinin ümumi informasiya və kommunikasiya məkanının yaradılmasına ehtiyac duyulur. Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin forum iştirakçılarına müraciətində deyildiyi kimi, Xəzər ölkələri balıqçılıq, nəqliyyat, neft və qaz hasilatı, turizm sahələrini inkişaf etdirməklə yanaşı, dənizin nadir təbiətini qoruyub saxlamağa çalışır və ən mürəkkəb məsələləri birgə həll etməlidirlər. Forum çərçivəsində "Kaspiyskaya meçta-2016" Beynəlxalq jurnalist yazıları müsabiqəsi də elan olunub. "Xəzər ideyalar dənizidir", "İnsan və dəniz", "Xəzər kruizi" və "FotoKaspiy" nominasiyalarında qaliblərin adları forumun axırıncı günü açıqlanacaq. Qaliblərin təntənəli mükafatlandırma mərasimi keçiriləcək.

# Prezidentin Sərəncamı: Hər kiloqram xam pambığa görə subsidiya veriləcək

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 22-də "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, ölkədə kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi, pambıq istehsalına əhalinin marağının artırılması və sosial rifahının daha da yaxşılaşdırılması məqsədi ilə emal müəssisələrinə satılmış hər kiloqram xam pambığa görə pambıq istehsalçılarına 0,1 manat subsidiya nəzərdə tutulub. Subsidiya 2016-cı ildə istehsal olunan və emal müəssisələrinə satılmış xam pambığa da şamil edilir.

Nazirlər Kabinetinə emal müəssisələrinə satılmış hər kiloqram xam pambığa görə pambıq istehsalçılarına subsidiyanın verilmə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla 15 gün müddətində müəyyən etmək, Maliyyə Nazirliyinə isə maliyyələşməni təmin etmək tapşırılıb.

# Əli Həsənov: “Mişel Forstun hesabatı Azərbaycan reallığını əks etdirmir, qərəzlidir və sifariş xarakterlidir”

*Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun AZƏRTAC-a müsahibəsi*



***- Əli müəllim, BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi Mişel Forst qurumun Azərbaycan ilə bağlı hesabatını açıqlayıb. Hesabata münasibətiniz necədir?***

- Qeyd etməliyəm ki, Azərbaycan müxtəlif beynəlxalq və xarici qeyri-hökumət təşkilatları ilə daim fəal əməkdaşlıq edir və bu sahədə yaxşı təcrübə toplanılıb. Ayrı-ayrı vaxtlarda onların ölkəmizdə bu və ya digər sahələrlə bağlı hazırladıqları və yaydıqları hesabatlara münasibət də fərqli olub. Obyektiv, mahiyyət etibarı ilə reallığı əks etdirən hesabatlar həmişə həmin qurumlarla müzakirə edilib və nöqsanların müəyyən olunduğu halda, onların aradan qaldırılması ilə bağlı real addımlar atılıb. Lakin Azərbaycan heç vaxt subyektiv mülahizələrdən ibarət, qərəzli və qeyri-ciddi iddialara əsaslanan sənədləri qəbul etməyib və bu gün də öz prinsipial mövqeyində qalır.

Qeyd edim ki, hər bir beynəlxalq təşkilatın, xüsusilə də BMT kimi ali qurumun hesabatı müstəqil şəkildə hazırlanmalı, balanslı olmalı, dəqiq və yoxlanılmış faktlara əsaslanmalı, istənilən sahə ilə bağlı həm müsbət, həm də mənfi məqamlar nəzərə alınmalıdır. Təəssüf ki, cənab Mişel Forstun məruzəsində balans gözlənilməyib, irəli sürülən iddialar, xüsusilə həbslər, KİV və QHT-lərlə bağlı “faktlar” araşdırılmayıb, Azərbaycan hakimiyyətinin mövqeyi öyrənilməyib və nəzərə alınmayıb. “Freedom Hause” kimi Azərbaycana qarşı mənfi münasibət bəsləyən xarici QHT-lərin “hesabatlarında” əksini tapmış mülahizələr olduğu kimi həmin sənədə köçürülüb.

İnsan hüquqlarından danışarkən, xüsusi məruzəçi həm də Azərbaycanda bir milyondan artıq qaçqın və məcburi köçkünün hüquqlarının pozulmasını nəzərə almalı və sənədə daxil etməli idi. Lakin təəssüflə qeyd etməliyəm ki, ölkəmiz üçün taleyüklü məsələ hesab edilən qaçqın-köçkün problemi diqqətdən kənarda saxlanılıb. Təsadüfi deyil ki, mətbuat konfransında cənab Forst öz mandatını əsas gətirərək, ümumiyyətlə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi və onun nəticələrinə toxunmayacağını bəyan edib. Bu da onun Azərbaycana qarşı münasibətinin və ermənipərəst mövqeyinin açıq göstəricisidir. Burada söhbət mandatla müəyyən olunmuş səlahiyyətlərdən deyil, Ermənistanın işğalı nəticəsində Azərbaycanda yaranmış humanitar vəziyyətin ümumi duruma mənfi təsirindən gedir ki, bu məqam da beynəlxalq hüquq məsələləri ilə məşğul olan hər bir şəxsin, xüsusilə də BMT-nin məruzəçi missiyasını yerinə yetirən rəsmi nümayəndənin diqqətində olmalıdır.

Düşünürəm ki, cənab Forst Ermənistanla bağlı analoji hesabatında bu ölkədəki vəziyyəti az qala İsveçrə, Almaniya və ya Fransa ilə bir səviyyəyə çatdırmağa cəhd göstərəcək. Ermənistanda insan hüquqlarının total şəkildə pozulması, QHT-lərə təzyiqlər və digər bu kimi məsələlərin o hesabatda əksini tapacağı şübhə doğurur.

Xüsusi məruzəçi bir çox məsələlərdə olduğu kimi, hökumətlə vətəndaş cəmiyyəti sektoru arasında dialoqun olmamasını iddia etməklə ciddi yanlışlığa yol verib. Bunun da əsas səbəbi odur ki, cənab Forst Azərbaycanda yalnız ona lazım olan QHT-lərlə görüşüb. Həmin QHT-lərin hesabatlarında isə adətən hökumətin ardıcıl şəkildə vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ilə görüşlər təşkil etdiyi, onların problemlərini öyrəndiyi və həlli istiqamətində addımlar atdığı barədə informasiyalar gizlədilir. O ki qaldı QHT-lərin fəaliyyətini tənzimləyən qanunlara dəyişikliklərlə bağlı iradlara, qeyd etməliyəm ki, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətində şəffaflığın təmin olunması ilk növbədə BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisinin marağında olmalıdır.

Həbslər məsələsinə gəldikdə, cənab Forstun mülahizələri onu deməyə əsas verir ki, o, cinayətlərin xarakteri və cinayət materialları ilə, ümumiyyətlə, tanış olmayıb. Əgər tanış olsaydı, konkret cinayət əməlinə görə məsuliyyətə cəlb olunmuş şəxsin barəsində “internetdəki fikirlərinə görə cinayət işi açılıb” ifadəsini işlətməzdi. Bu, ən azından peşəkarlıq məsələsidir. Həmçinin cənab Forst maliyyə çətinliyi ilə üzləşən və buna görə də fəaliyyətini dayandıran hər hansı KİV-lə bağlı yaranmış vəziyyətin məsuliyyətini hökumətin üzərinə yıxmazdı. Ümumiyyətlə, həmin hesabatda və xüsusi məruzəçinin məntiqində ziddiyyətlər, qeyri-dəqiqlik, faktların təhrif olunması halları o qədər çoxdur ki, bu, cənab Forstun ekspert kimi səriştəliliyini ciddi şübhə altına qoyur.

Bütün bunlara görə, BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi Mişel Forstun hesabatı Azərbaycan reallığını əks etdirmir, qərəzlidir və sifariş xarakterlidir.

***- Siz bu hesabatın həm də sifarişli olduğunu qeyd etdiniz. Buna səbəb nədir?***

- Bilirsiniz ki, Azərbaycan demokratik, hüquqi dövlətdir, ölkədə bütün məsələlər qanun çərçivəsində tənzimlənir, hakimiyyət bölgüsü qanunverici, icra və məhkəmə hakimiyyətləri arasında tarazlılığı təmin edir. Azərbaycanda söz və məlumat, sərbəst toplaşmaq və digər azadlıqlar təmin olunub. Yüzlərlə KİV, QHT, onlarla siyasi partiya fəaliyyət göstərir, ictimai-siyasi proseslərdə fəallıqları ilə seçilir, öz mövqelərini açıq şəkildə bəyan edirlər.

Sentyabrın 26-da Azərbaycanda Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı referendum keçiriləcək. Konstitusiya islahatları son illərdə siyasi, sosial-iqtisadi və hüquqi sahələrdə baş vermiş intensiv yenilikləri əks etdirir. Bu təşəbbüs dövlət idarəçiliyinin təkmilləşməsinə, insan hüquq və azadlıqlarının qorunması üçün daha geniş bazanın yaradılmasına, həyata keçirilən islahatların dərinləşməsinə və səmərəliliyinin təmin olunmasına yönəlib.

Artıq bəzi xarici dairələrin davranışı onu deməyə əsas verir ki, hər dəfə xalqımız üçün mühüm əhəmiyyət kəsb edən hadisələr ərəfəsində fəallaşan və ölkəmizi hədəfə götürən qüvvələr bu dəfə də Azərbaycana xüsusi münasibətlərini büruzə verirlər. Təsadüfi deyil ki, sentyabrın 20-də Avropa Şurasının Venesiya Komissiyası referendumla bağlı öz qərəzli rəyini açıqladı. Adətən Venesiya Komissiyası tez-tələsik şəkildə hər hansı qanun layihəsinə rəy yazmır və qarşı tərəfin də mövqeyini öyrənir. Ancaq bu dəfə referendum layihəsi ilə bağlı bütün prosedurlar pozulub və AŞPA prezidentinin sorğusu əsasında cəmi iki həftə müddətində tələm-tələsik rəy hazırlanaraq yayılıb. Bununla da Azərbaycan tərəfi öz mövqeyini bildirmək hüququndan məhrum edilib. Venesiya Komissiyasından dərhal sonra BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi hesabat açıqlayaraq Azərbaycanı hədəfə götürüb və ola bilsin ki, qarşıdan gələn bir neçə gün ərzində başqa təşkilatlar və məlum xarici QHT şəbəkəsi hansısa bəyanatlar versinlər və hesabatlar açıqlasınlar.

Hesab edirəm ki, bütün bunlar bir mərkəzdən idarə olunan prosesin tərkib hissəsidir və referendumla bağlı Azərbaycan hakimiyyətinin siyasi mövqeyinə, xalqın iradəsinə təsir göstərmək məqsədi daşıyan sifarişli kampaniyadır. Düşünmürəm ki, bu cəhdlər hansısa səmərə versin.

Azərbaycan hakimiyyəti xalqın maraqlarından çıxış edir, onun qarşısında məsuliyyət daşıyır və öz siyasətini davamlı inkişaf, sosial rifah, dövlətçiliyin, təhlükəsizliyin möhkəmləndirilməsi, problemlərin milli maraqlar çərçivəsində həlli və digər bu kimi meyarlar üzərində qurur. Azərbaycan xalqı da Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti hərtərəfli dəstəkləyir və öz liderinin arxasınca gedir. Buna görə də Azərbaycanı düzgün inkişaf yolundan çəkindirməyə hesablanmış bütün cəhdlər iflasa məhkumdur.

## Andrey Mamukin: Avropa İttifaqının əksər üzvləri Azərbaycan ilə yaxın münasibət qurduqlarına görə fəxr edirlər



***Azərbaycan ilə münasibətlər Avropa İttifaqına üzv ölkələr üçün prioritetdir. Əminliklə deyə bilərəm ki, əksər ölkələr hazırda Azərbaycan ilə yaxın münasibət qurduqlarına görə fəxr edirlər.***

Bu fikirləri Ölkəmizdə səfərdə olan Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsinin nümayəndə heyətinin Latviyadan olan üzvü Andrey Mamukin AZƏRTAC-a müsahibəsində deyib. Andrey Mamukin bildirib ki, Avropa Parlamentinin ötən ilin sentyabrında Azərbaycan ilə bağlı qəbul etdiyi qətnamə heç bir reallığı əks etdirmir. Prezident İlham Əliyev ilə görüşləri barədə təəssüratlarını bölüşən Avropa Parlamentinin üzvü vurğulayıb ki, dövlətimizin başçısının layihədə yer alan məlumatların yalan və qərəzli olduğunu konkret faktlarla sübuta yetirməsi onların ölkəmizlə bağlı fikirlərində əsaslı dönüş yaradıb.

O deyib: “Azərbaycan Prezidentinin bizə dedikləri tamamilə düzgündür. Prezident İlham Əliyev dörd maddə üzrə öz qeydlərini bildirdi. Baxmayaraq ki, kifayət qədər gərgin iş qrafiki var, dövlət başçısı vaxtını ayırdı və dörd maddə üzrə sözbəsöz, hərfbəhərf bu məlumatların yalan olduğunu sübut etdi. Prezident dedi ki, siz istənilən məlumatı özünüzün başa düşdüyünüz kimi qiymətləndirə bilərsiniz. Amma bu mətndə başdan-ayağa yalan məlumatlar yer alır. Həmin an mən düşündüm ki, bəlkə dövlət başçısı öz xalqını müdafiə edir. Düzü, deyilən iradlara həmin an o qədər də inanmadım. Amma təxminən bir neçə saatdan sonra sizin hüquq müdafiəçiləri ilə, qeyri-rəsmi şəxslərlə görüşdüm, - nəzərə alsaq ki, bu insanların işi haradasa səhv tapmaqdır, ölkədə qəbul olunan qərarlara qarşı çıxmaqdır, - onlar da öz fikirlərini açıq şəkildə bildirəndə ki, Avropa Parlamenti bu qətnamə ilə yalnız Prezidentə qarşı deyil, vətəndaşlara qarşı da hörmətsizlik edib, o zaman düşündüm ki, vəziyyət, yumşaq desək, yaxşı deyil. Avropa Parlamentinin bu qətnaməsi nəinki yalan və qərəzli faktlar üzərində qurulub, eyni zamanda, siyasi sənəd kimi heç bir keyfiyyətə malik deyil. Qətnamədə hər şey baş-ayaq idi. Siyasi baxımdan keyfiyyətsiz bir mətn alınmışdı. Mən öz səhvimi utanmadan etiraf edirəm. Öz adımdan Azərbaycan xalqından üzr istəyirəm. Çünki bu qətnamə sizin xalqınıza qarşı çox böyük hörmətsizlik idi. Bu, siyasi oyundur. Siyasətçilər gəlirlər və gedirlər. Biz Avropa Parlamenti olaraq əsrlər boyu Avropa xalqları, o cümlədən mənim vətənim Latviya ilə sıx əlaqələrə malik böyük bir xalqı təhqir ediriksə, mən həqiqətən utanıram”.

Yalan və qərəzli informasiyaların Avropa Parlamenti ilə Azərbaycan arasında münasibətlərə kölgə saldığını bildirən A.Mamukin bu səfərdən sonra mövcud əlaqələrin keyfiyyətcə yeni mərhələyə qədəm qoyacağına ümid etdiyini bildirib. Qeyd edib ki, bunun üçün hər iki tərəf maraqlıdır və hazırda Azərbaycanla əhatəli müqavilə üzərində işə böyük önəm verilir. Bu müqavilənin hansı şərtlə və əməkdaşlıq münasibətləri üzərində qurulacağının yolunu isə məhz Prezident İlham Əliyev dəqiq faktlarla izah etdi. “Azərbaycan Prezidenti nə etmək lazım olduğunu ətraflı söylədi. Əvvəla bu ritorikadan əl çəkmək lazımdır. Mən bununla tamamilə razıyam. Çünki həm keçmiş jurnalist, həm siyasətçi kimi deyə bilərəm ki, Azərbaycanla istənilən sahədə - siyasi, iqtisadi, sosial sahələrdə danışmaq olar. Amma ona diktə etmək mümkün deyil. Avropa Parlamentinin qəbul etdiyi qətnamənin ən böyük mənfi cəhəti yalnız faktların təhrifi deyil, - bu da böyük qəbahətdir, - həm də diktə etmək istəyidir. Biz nəyə görəsə on milyona yaxın əhalisi, zəngin tarixi və adət-ənənələri olan ölkəni öyrətmək istəyirik. Bu yanaşmadan prinsipial şəkildə qaçmaq lazımdır. Biz bunu etməliyik. Xüsusən iki günlük səfərlə bağlı təəssüratlarımdan çıxış edərək deyə bilərəm ki, biz bunu edə bilərik. Çünki onların Azərbaycana yanaşması dəyişib. Onlar istər Avropa Parlamenti, istər Milli Məclis səviyyəsində aparılan danışıqlarda öz yanaşma tərzlərini, tonlarını dəyişməkdə maraqlı görünürlər”, - deyə nümayəndə heyətinin üzvü qeyd edib.

Qonaq müsahibədə Azərbaycanın müasir çağırışlar fonunda reallaşdırdığı siyasi, iqtisadi, humanitar layihələrə, ölkəmizin multikulturalizm ənənələrinə də toxunub. Bildirib ki, Azərbaycan öz qapılarını müxtəlif dinlərin nümayəndələrinin üzünə açan yeganə müsəlman ölkəsidir. Ölkəmizin müdrik xarici siyasət yürütdüyünü deyən Andrey Mamukin bu siyasət nəticəsində Azərbaycanın uğurlu balans əldə etdiyinə diqqəti çəkib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövcud vəziyyəti şərh edən A.Mamukin Avropa Parlamentinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü ilə bağlı mövqeyinin də ortada olduğunu vurğulayaraq deyib: “Hətta Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin Azərbaycanla bağlı əməkdaşlıq sənədində parlamentin 2010-cu il qətnaməsinə istinad var. Mən o zaman Avropa Parlamentinin deputatı deyildim. Həmin qətnamədə göstərilir ki, Avropa Parlamenti Azərbaycanın ərazi bütövlüyünə hörmət edir və bu problemin beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdardır”.

# Şahin Əliyev: Referendum Aktının layihəsi barədə Venesiya Komissiyasının rəyi siyasi sifarişdir

***Venesiya Komissiyası yüksək peşəkarlardan ibarət çox mötəbər bir qurumdur. Azərbaycan hökuməti hər zaman Venesiya Komissiyası ilə çox səmərəli əməkdaşlıq edib. Bu əməkdaşlıq həmişə qarşılıqlı hörmətə əsaslanıb. Bəzən bir-birimizlə razılaşmasaq da, fikirlərimizə, rəylərimizə qarşılıqlı hörmətlə yanaşırıq. Xatırlamıram ki, Komissiya hər hansı bir məsələ ilə bağlı üç aydan tez bu və ya digər rəyə gəlsin. Adətən prosedura əsasən, Azərbaycanla bağlı hər hansı bir qanun layihəsinə dair ilkin rəy hazırlanaraq elektron poçt vasitəsilə bizə göndərilirdi. Azərbaycan tərəfinin fikirləri, arqumentləri öyrənilir və yalnız bundan sonra həmin rəy dərc edilirdi. Lakin referendumla bağlı rəy hazırlanarkən naməlum səbəblərdən bütün bu ənənəvi prosedur qaydaları kobud şəkildə pozulub. Bu prosedurun pozulması ciddi narahatlıq yaratmaya bilməz.***




AZƏRTAC xəbər verir ki, bu fikirləri "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsinə dair Venesiya Komissiyasının ilkin rəyi ilə bağlı sentyabrın 21-də keçirilən mətbuat konfransında Prezident Administrasiyasının qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri Şahin Əliyev deyib.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, Venesiya Komissiyasının bu rəyi AŞPA sədrinin sorğusu əsasında hazırlanıb. Bu sorğu Komissiyaya sentyabrın 6-da təqdim olunub. Azərbaycan tərəfinin dinlənilmə hüququna məhəl qoyulmayaraq, bu rəy cəmi iki həftə sonra Komissiyanın rəsmi saytında dərc olunub. İngilis dilində belə bir ifadə var "Due process". Bu ifadənin dəqiq tərcüməsi yoxdur. Bu, çox ahəngdar bir anlayışdır, o cümlədən məhkəmə prosesində qarşı tərəfin ittihamdan əvvəl dinlənilməsi hüququnu ehtiva edir. Lakin bu hüquq bu dəfə bizim əlimizdən alınıb. Əslində, bizi fakt qarşısında qoyublar. Referendum Aktının layihəsi barədə Venesiya Komissiyasının rəyində bildirilir ki, sentyabrın 6-da Komissiya Azərbaycan tərəfi ilə əlaqə saxlamağa cəhd edib və bu, baş tutmayıb. Rəsmi bildirirəm ki, bu yalandır. Prezident Administrasiyası ilə nə sentyabrın 6-da, nə də sonra, nə elektron poçt vasitəsilə, nə də adi telefonla əlaqə saxlanılmayıb. Rəydə qeyd edilir ki, Konstitusiyaya 29 düzəlişdən ibarət referendum aktının müzakirəsi üçün iki ay - 60 gün kifayət deyil. Lakin necə olur ki, iki həftə - 14 gün ərzində həmin 29 düzəlişə dair rəy hazırlanaraq dərc edilir?!

Venesiya Komissiyasının rəyində kifayət qədər qeyri-dəqiqliklərin və kobud səhvlərin olduğunu deyən Şahin Əliyev bildirib ki, misal üçün, rəyin 25-ci bəndində Azərbaycan Konstitusiyasının 159-cu maddəsinə istinad edilir. Halbuki bizim Konstitusiya 158 maddədən ibarətdir.

Prezident Administrasiyasının şöbə müdiri vurğulayıb ki, Komissiya tərəfindən Referendum Aktı layihəsinin insan hüquqları ilə bağlı məğzi dəstəklənir və müsbət qiymətləndirilir. Şahin Əliyev deyib: "Onların əsas narazılıqları müharibə şəraitində olan ölkənin icra hakimiyyəti şaqulisinin möhkəmləndirilməsi ilə bağlıdır. Söhbət Referendum Aktı qəbul ediləcəyi təqdirdə təsis olunacaq vitse-prezidentlik institutundan gedir. Onların əsas arqumenti ondan ibarətdir ki, təyinatlı vitse-prezidentlik institutu demokratik standartları pozur. Əgər normal müzakirələr keçsəydi və bizim rəyimiz öyrənilsəydi, onlara sual verməк olardı ki, bu demokratik standart harada mövcuddur?! Hansı beynəlxalq sənəddə, hansı aktda bu, əksini tapıb?! Belə standartlar mövcud deyil. Belə standart yoxdur. Onu heç kim tapıb qarşımıza qoya bilməz. Rəydə deyilir ki, Azərbaycan Prezidenti vəzifəsini icra edə bilmədikdə, bu vəzifəni vitse-prezidentlərin yerinə yetirməsi qeyri-demokratikdir. Ona görə ki, təyinatlı vitse-prezident seçkili vəzifə deyil. Həmin ekspertlərə bildiririk ki, hamımızın demokratik dövlət kimi qəbul etdiyi ABŞ-da prezident öz səlahiyyətlərini icra edə bilmədikdə, onun səlahiyyətləri vitse-prezidentə keçir. Vitse-prezident bu vəzifəni icra edə bilmədikdə isə siyahı üzrə təyin olunmuş, seçilməmiş nazirlər icra edir. Heç kim bu proseduru qeyri-demokratik adlandırmır. Vitse-prezidentlik institutunun yaradılması Azərbaycanda aparılan iqtisadi islahatların tələbidir. Ona görə ki, Azərbaycan Prezidentinin iqtisadi məsələlər üzrə iki köməkçisi dövlətimizin başçısının iqtisadi islahatlar siyasətini həyata keçirmək üçün kifayət deyil. İqtisadi islahatlar çox mürəkkəb və məsuliyyətli prosesdir. Bu prosesdə siyasətin sahələr üzrə aparılması tələb olunur".

Mətbuatda dəfələrlə qeyd olunub ki, Nazirlər Kabineti ölkədə gedən iqtisadi islahatların lokomotivinə çevrilə bilməyib. Bu fikirlə razılaşmaq olar. Ona görə ki, Nazirlər Kabineti uzunmüddətli proseslərdə özünü çox effektiv orqan kimi göstərib və kifayət qədər səmərəli işləyib. Lakin o, hər ay dəyişən iqtisadi şəraitdə, maliyyə siyasətində aparıcı rol oynaya bilməyib. Ona görə ki, Nazirlər Kabinetinin institusional mahiyyəti, strukturu, iş tərzi bu cür fəaliyyət üçün nəzərdə tutulmayıb. Çevik qərarlar qəbul etmək imkanına malik institut bugünkü həyatın tələbidir.

Şahin Əliyev qeyd edib ki, Referendum Aktının layihəsi ilə əlaqədar Venesiya Komissiyasının digər narazılığı prezidentə parlamenti buraxmaq səlahiyyətinin verilməsi ilə bağlıdır. Söhbət layihənin 95-ci prim maddəsindən gedir. Bu maddənin Referendum Aktının layihəsinə salınması heç də kiminsə istəyi ilə baş verməyib. Bu, həyatın tələbidir. Ona görə ki, hər bir kollegial orqanın fəaliyyətində olduğu kimi, parlamentin fəaliyyətində də, şahmatçıların dili ilə desək, pat vəziyyəti yarana bilər. Çünki bu orqanda qərarlar səsvermə yolu ilə qəbul olunur. Mətbuatda da vurğulanıb ki, bir sıra hallarda Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim olunmuş qanun layihələri Konstitusiyanın 96-cı maddəsində nəzərdə tutulmuş müddətdə səsverməyə çıxarılmır. Çox maraqlıdır ki, Venesiya Komissiyası rəyində başqa ölkələrin təcrübəsinə istinad etmir. Ancaq Referendum Aktı layihəsinin 95-ci prim maddəsində parlamentin buraxılması səbəbləri sadalanıb. Bu səbəblər Konstitusiyanın müvafiq maddələrinə əsaslanır: parlament hansı hallarda, hansı vəzifələri icra edə bilmədikdə buraxıla bilər. Referendum Aktının layihəsində bir şərt də irəli sürülüb ki, bu səbəblər aradan qaldırıla bilməyən olmalıdır. Misal üçün, yalnız Fransada prezident Milli Assambleyanı çox asanlıqla buraxa bilər. Fransa Konstitusiyasının yeganə tələbi ondan ibarətdir ki, bu addım atılmazdan əvvəl Prezident Senatın sədri və Milli Assambleyanın sədri ilə məsləhətləşmələr keçirməlidir. Bu məsləhətləşmənin nəticələrinin nəzərə alınıb-alınmaması barədə Fransa Konstitusiyasında heç bir müddəa yoxdur. Bir daha qeyd edirəm ki, referenduma çıxarılan layihədə Azərbaycanda parlamentin buraxılmasının bütün səbəbləri Konstitusiyaya istinad edilməklə bir-bir sadalanır.

Azərbaycan Prezidentinin səlahiyyət müddətinin yeddi ilədək artırılması ilə bağlı Venesiya Komissiyasının rəyindəki iradda bildirilir ki, bununla əlaqədar xarici ölkələrin təcrübəsi kifayət qədər öyrənilməyib. Ancaq unudurlar ki, hazırda İsraildə, Kiprdə, İslandiyada prezidentlər 7 il, Finlandiyada, Avstriyada isə 6 il müddətinə seçilir. 2000-ci ilə qədər Fransada da prezident 7 il müddətinə seçilirdi. Bu dəyişikliyin birinci əsas məğzi ondan ibarətdir ki, parlamentlə prezidentin mandatının müddəti üst-üstə düşməsin. İkincisi, bildiyiniz kimi, Azərbaycan hər beş ilin üç ilini "seçki qızdırması" şəraitində yaşayır. Belə ki, hər beş ilin üç ilində prezident, parlament və bələdiyyə seçkiləri keçirilir. Bu vəziyyətdən çıxış yolu olaraq, prezidentin səlahiyyətlərinin 7 ilədək artırılması təklif edilir. 2000-ci ildə Fransada Jak Şirakın təşəbbüsü ilə Fransa Konstitusiyasında prezidentlik müddətinin 7 ildən 5 ilə dəyişdirilməsinin səbəblərini axtararkən yeganə onu tapa bildim ki, o, bu barədə yalnız bu sözləri deyib: "7 il çoxdur, 5 il daha məqbuldur". Nəyə görə məqbuldur? Bunun heç bir izahı yoxdur.

Prezident Administrasiyasının rəsmisi deyib ki, Venesiya Komissiyasının rəyində digər irad Referendum Aktının layihəsində Azərbaycan Prezidentinə növbədənkənar prezident seçkilərini təyin etmək səlahiyyətinin verilməsinə aiddir. Konstitusiyaya təklif olunan bu dəyişiklik onunla bağlıdır ki, Prezidentin səlahiyyət müddəti 7 il olduğu təqdirdə onun özününam votumu üçün xalqa müraciət etmək imkanı olsun. Bu da çox məntiqli haldır.

"Venesiya Komissiyasının fəaliyyəti haqda məlumatlı olan hər kəsdə belə təssürat yaranır ki, qurum bu rəyi yalnız siyasi sifariş əsasında hazırlayıb. Ona görə ki, bu rəyin tez-tələsik - cəmi iki həftə ərzində hazırlanması belə deməyə əsas verir. Referendum Aktının layihəsi ilk dəfə iyulun 18-də dərc edilib və eyni vaxtda Konstitusiya Məhkəməsinə təqdim olunub. İyulun 18-dən 26-dək hamının, Azərbaycan Respublikasının hər bir vətəndaşının, hər bir təşkilatın layihəyə dair irad və təklif vermək hüququ olub. Lakin AŞPA sədrinin sorğusu nə həmin müddətdə, nə də avqustda deyil, referenduma cəmi 20 gün qalmış Venesiya Komissiyasına ünvanlanıb. Referenduma 20 gün qalmış Venesiya Komissiyasına bununla bağlı sorğunun göndərilməsi və iki həftə ərzində belə şübhəli rəyin hazırlanması yalnız siyasi sifariş kimi izah oluna bilər", - deyə Şahin Əliyev vurğulayıb. Prezident Administrasiyasının şöbə müdiri bildirib ki, referendumun elan edilməsi Azərbaycan Prezidentinin Konstitusiyada təsbit olunmuş hüququdur. Onu bu hüquqdan heç kim məhrum edə bilməz. Bir daha vurğulayıram ki, Venesiya Komissiyası bu rəyi hazırlayarkən bizimlə əməkdaşlıq prosedurlarını kobud şəkildə pozub. Oktyabrın 14-15-də Komissiyanın plenar iclası keçiriləcək. Həmin rəy bu iclasda təsdiq edilməlidir. Azərbaycanın rəsmi mövqeyi də həmin plenar iclasda açıqlanacaq. Biz çalışacağıq ki, Azərbaycan hökumətinin mövqeyi rəsmi olaraq Venesiya Komissiyasının sənədi qismində həmin rəyə əlavə edilsin. Sonda jurnalistlərin sualları cavablandırılıb.

## "Venesiya Komissiyasının rəyi Azərbaycan üçün əhəmiyyət kəsb etmir"




***"Venesiya Komissiyasının rəyi Azərbaycan üçün əhəmiyyət kəsb etmir." SİA-nın xəbərinə görə, bunu hakim Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov açıqlamasında deyib.***

S.Novruzov qeyd edib: "Referendumun keçirilməsinə sayılı günlər qalıb və sentyabrın 26-da seçicilər seçki məntəqələrinə gələrək öz münasibətlərini bildirəcəklər. Bununla bağlı kifayət qədər tədbirlər keçirilib, yəni iyulun 18-də Prezident İlham Əliyev Konstitusiya Məhkəməsinə müraciət imzalayıb, Konstitusiya Məhkəməsi isə bir həftə ərzində bu məsələyə baxıb, hər bir maddəni nəzərdən keçirdikdən sonra rəy verib. Yəni bu proses dövründə istənilən komissiya, qurum öz rəyini verə bilərdi. Lakin indiyə qədər nə Venesiya Komissiyası, nə də digər qurumların heç birinin münasibəti olmayıb".

Millət vəkili əlavə edib ki, Venesiya Komissiyasının referenduma bir neçə gün qalmış rəy bildirməsi qərəzə söykənir, bu baxımdan da həmin rəyi şərh etməyə ehtiyac yoxdur: "Çünki məlum məsələdir ki, Konstitusiyaya əlavə və dəyişikliklər xalqın iradəsi əsasında həyata keçirilir və xalq da öz iradəsini referendumda ifadə edəcək. Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərlə bağlı Azərbaycan vətəndaşları ilə çoxsaylı görüşlər keçirilib - bu görüşlər sentyabrın 24-dək davam edəcək - görüşlərdə referenduma təqdim olunan məsələlər müzakirə olunub. Əminliklə deyə bilərəm ki, vətəndaşlar sentyabrın 26-da seçki məntəqələrinə gəlib referendumla bağlı gündəmə çıxarılan maddələrin hər birinə münasibət bildirərək səs verəcəklər. Bu, xalqın iradəsidir. Hakimiyyətin mənbəyi xalqdır. Ona görə də hansısa komissiyanın, hansısa ekspertin rəyi bizim üçün əsas ola bilməz. Çünki qərarı qəbul edən xalqdır".

S.Novruzov bildirib ki, Azərbaycan xalqı bu referendumda məqsədin insan hüquq və azadlıqlarının qorunması, hakimiyyətin müxtəlif qollarının təkmilləşdirilməsi, vətəndaşların müraciətlərinə baxılıb dərhal cavab verilməsi və digər mühüm məsələlər olduğunu oxuyur, bilir: "Yəni bütün bunlar xalq üçün edilir, hər bir dəyişiklik onların rifah halının yaxşılaşdırılması məqsədilə həyata keçirilir".

YAP rəsmisi vurğulayıb ki, bu məsələdə hansısa qurumun fikri Azərbaycan üçün əhəmiyyət kəsb etmir: "Cənab Prezident İlham Əliyev də Avropa Parlamentinin üzvləri ilə görüşündə onların qəbul etdiyi qərarlarla bağlı bir sıra faktlar ortaya qoydu. Konkret olaraq göstərdi ki, bunların qəbul etdiyi hər hansı bəyanat, qətnamə - hamısı qeyri-qanunidir, nə beynəlxalq hüquqa, nə ədalətə, nə də insanlığa əsaslanır. Bu baxımdan da kiminsə nə yazıb-pozması bizim üçün o qədər də böyük əhəmiyyət kəsb etmir".

Deputat qeyd edib ki, müasir dövrdə dünyanın hər bir ölkəsində dövlət strukturlarının təkmilləşdirilməsi aparılır: "Elə buna qədər cənab Prezidentin sərəncamı ilə ayrı-ayrı qurumlar yaradıldı, islahatlar aparıldı. Yeni ölkə iqtisadi cəhətdən inkişaf etdikcə, gücləndikcə, beynəlxalq səviyyədə nüfuzu artdıqca, eləcə də dünyada bir çox hadisələrin, terror aktlarının artdığını nəzərə alsaq, dövlət strukturlarının, təhlükəsizlik sisteminin təkmilləşdirilməsi hər saat, hər an tələb olunur, nəinki təkcə referendum vasitəsilə. Azərbaycan da həsab edir ki, bu sahədə təkmilləşdirmə işi getməlidir və müvafiq addımlar atır. Lakin bir sıra xarici qurumlar istəmir ki, Azərbaycan güclü dövlət olsun, ölkəmizdə ictimai-siyasi sabitlik olsun. Onlar Azərbaycanın müxtəlif tədbirləri, o cümlədən böyük idman tədbirlərini yüksək səviyyədə təşkil etməsini istəmirlər. Məqsəd, maraq bundan ibarətdir. Bizi istəməyən qüvvələr, erməni lobbisi, daxilimizdə olan vətən xainləri keçiriləcək referenduma kölgə salmağa cəhd edirlər. Lakin bu, mümkün deyil, çünki bu, xalqın iradəsidir".

# Yeni Referendum Aktı dövlət müstəqilliyinin daha da inkişaf etdirilməsinə təminat verir

*Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, "Yeni Azərbaycan" referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndəsi İsa Həbibbəylinin yap.org.az-a müsahibəsi*

***- İsa müəllim, Konstitusiyaya nəzərdə tutulan əlavə və dəyişikliklər hansı zərurətdən yaranmışdır?***

- Azərbaycan cəmiyyəti ölkəmizin Konstitusiyasına dair Referendum Aktını zamanın sifarişi kimi qəbul etmişdir. Çünki Azərbaycanda müstəqil dövlətçiliyin sürətlə və hərtərəfli şəkildə inkişaf etməsi, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsi, eyni zamanda, dünya birliyində gedən müasir proseslər dövlət idarəetməsi istiqamətində və cəmiyyət həyatında daim yeni islahatları meydana çıxarır. Azərbaycan müstəqillik dövründə cəmiyyətin inkişafından doğan, zamanın sifarişi kimi meydana çıxan çağırışların işığında məqsədyönlü şəkildə keçirilən ardıcıl və geniş miqyaslı islahatların sayəsində irəli gedərək, bugünkü yüksək inkişaf mərhələsinə gəlib çatmışdır. Daha dəqiq desək, inkişafın hər yeni mərhələsi növbəti islahatlara tələbatları doğurmuş və həmin islahatların həyata keçirilməsi də öz növbəsində böyük inkişafa təkan vermişdir. Hazırda ölkəmizdə bundan sonrakı dövrün daha dinamik yüksəlişini təmin etmək, dövlət müstəqilliyini möhkəmləndirmək, siyasi sistemi təkmilləşdirmək üçün zaman növbəti islahatların sifarişini irəli sürür. Möhtərəm Prezidentimiz İlham Əliyevin "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsini geniş miqyasda cəmiyyətin müzakirəsinə təqdim etməsi respublikamızda bundan sonrakı tarixi epoxada daha möhkəm dövlətçiliyə və cəmiyyət həyatında yeni inkişafa malik olmaq zərurətindən irəli gəlmişdir. Dövlət başçısı tərəfindən irəli sürülmüş düşünülmüş dəyişikliklər Azərbaycanda müstəqil dövlətçiliyin 25 ili ərzində əldə olunmuş nailiyyətlərin inkişaf etdirilərək daha da möhkəmləndirilməsinə, bütün sahələr üzrə mühüm nailiyyətlərin və yeniləşmələrin əldə edilməsinə yol açır. Əslində təklif edilən dəyişikliklər respublikamızda dövlət müstəqilliyinin 25 il ərzində keçilmiş inkişaf yolunun dərslərindən çıxarılan mühüm nəticələrdir. Müstəqil Azərbaycan dövlətinin daha da inkişaf etdirilərək möhkəmləndirilməsində ölkəmizin hər bir vətəndaşı maraqlı olduğu üçün Konstitusiyaya təklif edilən dəyişikliklər bütövlükdə xalqımızın milli maraqlarını və dövlətçilik ideallarını ifadə edir. Ölkə Prezidenti İlham Əliyevin irəli sürdüyü "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktının layihəsinə dair Konstitusiya Məhkəməsinin Plenumunun qərarında deyildiyi kimi, təklif olunan dəyişikliklər ölkəmizin ümumxalq səsverməsi ilə qəbul olunmuş Baş Qanunnaməsinin - Konstitusiyamızın tələblərinə və prinsiplərinə tamamilə uyğundur. Bu, eyni zamanda, tarixə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə daxil olmuş Konstitusiyamızın cəmiyyətdə baş verən proseslərə açıq olduğunu və mövcud reallıqlardan doğan dəyişikliklərlə zənginləşdiyini bir daha nümayiş etdirir.

***- Referendum Aktında insan hüquqlarının müdafiəsi ilə əlaqədar müddəalara münasibətinizi bilmək istərdik...***

- Təəssüf ki, insan hüquqları məsələsinə bir çox Qərb siyasi dairələrində ikili standartlar mövcuddur. Bəzi beynəlxalq qurumlar üçün insan hüquqları məsələsindən təzyiq və təsir



mexanizmi kimi istifadə olunur. "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktının layihəsində insan hüquqları və azadlıqlarının təmin edilməsi istiqamətində irəli sürülən təkliflər isə ilk növbədə ölkəmizdə demokratik dəyərlərin, vətəndaş cəmiyyətinin daha da təkmilləşdirilməsinə şərait yaradacaq. Bu istiqamətdə indiyədək Azərbaycan cəmiyyətində daim islahatlar həyata keçirilmiş, ciddi bir inkişaf səviyyəsinə nail olunmuşdur. Azərbaycan cəmiyyətinin yeni inkişaf mərhələsinin tələbatı kimi meydana çıxan dəyişikliklərin əsasən insan hüquqlarının, vətəndaşların şərəf və ləyaqətlərinin müdafiəsinə aid olması geniş mənada müstəqil Azərbaycan dövlətinin mənbəyi olan xalqın mənafelərinin möhkəmləndirilməsinə şərait yaradır.

***- İsa müəllim, son illərin dünya təcrübəsi göstərdi ki, bir çox ölkələr ordu quruculuğu məsələsinə yenidən baxır. Referendum Aktında ölkəmizdə ordunun idarə olunması ilə əlaqədar irəli sürülən müddəaları necə şərh edərdiniz?***

- Əlbəttə, möhkəm və güclü orduya malik olmaq dövlət üçün çox əhəmiyyətli məsələdir. Dövlətçilikdə xüsusi çəkiyə malik olan, ölkənin müdafiəsini və təhlükəsizliyini təmin edən Silahlı Qüvvələrin idarə olunmasına dair Referendum Aktında təklif edilən dəyişikliklər bu ciddi və məsuliyyətli sahədə vahid komandanlıq sisteminin formalaşdırılması üçün zəruridir. Azərbaycan ordusunun və ölkəmizdə mövcud olan başqa silahlı birləşmələrin hamısının vahid qaydada Ali Baş Komandana tabe olması, eyni mərkəzdən idarə olunması, hər şeydən əvvəl, dövlət idarəçiliyinin bir daha möhkəmləndirilməsi deməkdir. Bu, eyni zamanda, ordu quruculuğu sahəsində növbəti islahatdır. Heç şübhəsiz, Referendum Aktının tələbinə uyğun olaraq təklif olunan dəyişiklik əsasında "başqa silahlı birləşmələr", yəni Azərbaycan Respublikasının Milli Ordusu ilə yanaşı, ayrı-ayrı nazirliklərin tabeliklərində olan sahələr üzrə ordu birləşmələri də tabeçilik və idarəetmənin möhkəmləndirilməsi üzrə öz fəaliyyətlərini daha da təkmilləşdirəcək. İllərdən bəri davam edən müharibə şəraitində olan Azərbaycan üçün ordu quruculuğunda belə bir islahat son dərəcə əhəmiyyətlidir. Bundan başqa, son vaxtların dünya hadisələrinin təcrübəsi də müxtəlif nazirliklərin tabeliyində fəaliyyət göstərən ordu birləşmələrinin dövlət başçısının - Ali Baş Komandanın əmr və göstərişlərinə tabe edilməsinin zəruri olmasının əhəmiyyətini bir daha təsdiq edir.

***- Referendum Aktında ölkəmizdə Prezident üsuli-idarəsinin formalaşdırılması haqqında təklifləri necə qiymətləndirirsiniz?***

- Əslində Azərbaycanda dövlət idarəçiliyi baxımından Prezident üsuli-idarəsi yolu müəyyən olunmuşdur. Azərbaycan Respublikası Baş Nazirinin və Milli Məclisin fəaliyyətinin təkminləşdirilməsinə dair Referendum Aktı layihəsində əksini tapmış dəyişikliklər öz məntiqi etibarilə Konstitusiyada edilməsi nəzərdə tutulan yeniləşmələrlə tamamilə uyğundur. Zəruri hallarda Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi ilə əlaqədar Konstitusiyaya daxil edilməsi nəzərdə tutulan dəyişikliklər ölkəmizdə cəmiyyət həyatında baş verən proseslərdə hüquqi dövlət quruculuğunun təmin edilməsinə şərait yaradan müddəalardır. Nazirlər Kabinetində və Milli Məclisin təşkilindəki yeniliklər geniş mənada dövlət idarəçiliyinin də yeniləşdirilməsi tələbini meydana çıxarır. Bunlar dünyanın bir çox inkişaf etmiş ölkələrində, o cümlədən, Azərbaycan Respublikasında ölkədə möhkəm sabitliyi və hərtərəfli böyük inkişafı təmin etmək mənasında özünü tam da isbat etmiş Prezident üsul-idarəsinin daha da möhkəmləndirilməsinə, hakimiyyətin ayrı-ayrı qollarının işinə dövlət rəhbərliyinin gücləndirilməsinə zərurət yaradır. Bu, Prezidentlik institutunun, hakimiyyətin müxtəlif qollarının dövlət və xalq qarşısında məsuliyyətinin daha da artırılmasına təsiri və nəzarətini genişləndirməyə imkan yaradacaq. Nəticədə müstəqil dövlətçilik geniş işlək mexanizmi və möhkəm nəzarət imkanları olan bir sistemə çevriləcək. Bu, yeni, genişləndirililmiş dövlət idarəçilik sistemi təbii olaraq həmin böyük spektrdə idarəetməni məqsədyönlü şəkildə təmin etmək üçün Prezident üsul-idarəsində də yeni strukturların yaradılması zərurətini meydana qoyur. "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktında Konstitusiyanın 103, 105, 106, 108, 110-cu maddələrində ölkəmizin müstəqillik tarixində ilk dəfə olaraq öz əksini tapmış vitse-prezidentlik istitutuna dair müddəalar tamamilə yenidir və nəticə etibarilə Prezident İdarəetməsi İnstitutunun daha da inkişaf etdirilməsinə xidmət edir. Prezident hakimiyyətinə əsaslanan idarəetmə sistemində Referendum Aktının müddəalarına əsasən Birinci vitse-prezident və vitse-prezidentlər vəzifələrinin müəyyənləşdirilməsi qəbul olunmuş idarəçilik sisteminin normal fəaliyyətinin təmin edilməsinə öz töhfəsini verəcək. Fikrimizcə, vitse-prezidentlik institutunun yaradılması Azərbaycanda həm də artıq inkişaf etmiş müstəqil bir dövlətin formalaşdığını göstərən əhəmiyyətli bir faktdır. Məhz inkişaf etmiş müstəqil Azərbaycan dövlətinin və yeniləşmiş Azərbaycan cəmiyyətinin bütün istiqamətlər üzrə daha da irəli getməsi üçün ölkə Prezidentinin tabeçiliyində vitse-prezidentlərin fəaliyyət göstərməsi dövlət rəhbərinin həyata keçirdiyi geniş miqyaslı islahatların, dövlət başçısının rəhbərliyi ilə icra olunan möhtəşəm proqramların yerinə yetirilməsinə icra məsuliyyətini artırar, beynəlxalq əməkdaşlıq sahəsindəki çoxcəhətli fəaliyyətə təkan verə bilər. Bu mənada vitse-prezidentlik institutunun yaradılmasına dair Referendum Aktının təklif olunan müddəalarının qəbul edilməsi ölkəmizdə Konstitusiya islahatları səviyyəsində də ciddi bir addımdır. Dövlət idarəetmə sistemində ilk dəfə olaraq vitse-prezidentlik strukturunun formalaşdırılması Prezident İlham Əliyevin adı ilə bağlı olan tarixi xidmətdir. Nəinki müstəqillik dövründə, hətta Azərbaycan dövlətçiliyinin bütün tarixi ərzində vitse-prezident formatında yeni səlahiyyətlər ilk dəfədir ki, tətbiq olunur. Vitse-prezidentlik ölkə Prezidentinin hakim komandasının yeni strukturu kimi dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsinə öz töhfələrini verəcək.

***- Seçkilərdə iştirak etmək üçün yaş həddinə aid yeni maddələrə baxışınız necədir?***

- Fikrimcə, bu da zamanın irəli sürdüyü tələbatdır. Artıq Azərbaycanda möhkəm dövlətçilik prinsipləri formalaşmışdır. Eyni zamanda, ölkəmizdə azərbaycançılıq idealları üstündə köklənmiş yeni gənc nəsil formalaşmışdır. Referendum Aktında seçilmək hüququ ilə əlaqədar müəyyən edilən 18 yaş həddi Azərbaycanda uğurla həyata keçirilməkdə olan gənclər hərəkatının idealları ilə tam səsləşir. Möhtərəm Prezidentimiz İlham Əliyevin müstəqil dövlətimizin daha da inkişaf etdirilməsi istiqamətində gəncliyin qarşısında açdığı geniş meydan ölkəmizin yeni nəslinin istedadlı, bacarıqlı, hərtərəfli hazırlığa malik nümayəndələrinin cəmiyyətin bütün sahələrində fəal iştirakına şərait yaratmışdır. Artıq respublikamızda gənclər müasir cəmiyyətin böyük qurucularına çevrilmişlər. Ona görə də seçilmək hüququ üzrə mövcud məhdudiyyətlərin aradan qaldırılması müstəqil Azərbaycan dövlətinin yeni nəslinin cəmiyyətin inkişafında daha yaxından və məsuliyyətlə iştirak etmələrinə yol açacaq. Bu, həm də müasir gənc nəsli ölkə miqyaslı böyük sınaqlara səfərbər etmək üçün də əhəmiyyətli addımdır. Hesab edirəm ki, dünyada özünün yüksək intellektual potensialı və dərin mənəvi dəyərləri ilə fərqlənən Azərbaycan xalqının yeni nəsilləri üçün müəyyən edilən 18 yaş həddində seçilmək hüququ xalqımızın, xüsusən yeni nəslin istedadını və qabiliyyətlərini üzə çıxarmaq baxımından da əhəmiyyətli olacaq.

***- İsa müəllim, ölkə Prezidentinin seçilməsi müddəti haqqındakı müddəalar xalqımıza nəyi vəd edir?***

- Birmənalı şəkildə bildirmək istəyirəm ki, Azərbaycanda müstəqillik dövründə qazanılmış uğurlar dövlət idarə etməsindəki sabit və davamlı proseslərlə əlaqədardır. Dünya xəritəsində rənglərin dəyişməsi təəssüf ki, bir çox hallarda aldadıcı, yalançı rəngli "inqilabların" nəticəsində yaranıb və nəticədə həmin ölkələrin xalqları dərin təəssüf və peşmançılıq hissindən başqa heç nə əldə edə bilməyiblər. Bu mənada Referendum Aktında Azərbaycan Respublikasının Prezidentinin fəaliyyət dövrünün 5 il əvəzinə 7 il müddətində nəzərdə tutulmasına dair dəyişikliklər də, fikrimcə, respublikamızda müasir inkişafın real məntiqindən doğan təbii haldır. Azərbaycanda bütün sahələr üzrə daxili iqtisadi inkişafın ilkin mühüm problemləri əsaslı şəkildə həll edilmiş, yüksək həyat səviyyəsi formalaşdırılmışdır. Bundan sonra qarşıda duran əsas vəzifələrdən biri, gələcək yeni inkişaf naminə ölkə və beynəlxalq miqyaslı davamlı proqramları həyata keçirməkdən, dövlətlərarası möhtəşəm layihələrin icrasına nail olmaqdan ibarətdir. Artıq ölkəmizdə ötən illər ərzində həmin istiqamətdə uğurlu təcrübələr əldə olunmuş, bir çox nəhəng transmilli layihələrin həyata keçirilməsi başa çatdırılmışdır. O da hər kəsə yaxşı məlumdur ki, Azərbaycan hazırda Şimal-Cənub, "Şahdəniz-2", TANAP, Bakı-Tbilisi-Qars kimi yeni tarixi epoxanın ölkələrarası iri miqyaslı layihələrinə rəhbərlik edir. Ölkəmiz bir çox beynəlxalq səviyyəli böyük proqramların əsas icraçıları sırasında mühüm yer tutur. Regionda sülhün və siyasi sabitliyin, iqtisadi inkişafın möhkəmlənməsinə böyük töhfələr vermiş bu layihələr Azərbaycanı inkişafın hazırkı yüksək mərhələsinə çatdırmaqda mühüm rol oynamışdır. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları Azərbaycanın ölkədaxili sürətli və hərtərəfli inkişafında tarixi hadisəyə çevrilmişdir. Belə böyük proqramların həyata keçirilməsi baxımından vaxt, zaman amili də çox mühüm faktordur. Bütün bu proseslər hazırda yeni mərhələyə qədəm qoyur. İlk növbədə ölkəmiz, həm də region, ümumiyyətlə dünya üçün əhəmiyyətli olan bu möhtəşəm proqramların həyata keçirilməsi baxımından təklif edilən 7 illik Prezidentlik müddəti daha geniş perspektivlər vəd edir. Davamlı islahatlar nəticəsində görüləcək işlər, reallaşdırılacaq böyük layihələr Azərbaycanın daha da irəli getməsinə, problemlərinin uğurlu həllinə imkan yaradacaq. Bu mənada ölkəmizin və xalqımızın, o cümlədən regionun inkişafı üçün 7 illik dövlət rəhbərliyinin təmin edilməsi daha məqsədəuyğundur. Bu, daha böyük inkişafın daha möhkəm təminatıdır.

İkincisi, Azərbaycan xalqı ölkə Prezidenti İlham Əliyevin respublikamızda sülhün və sabitliyin, hərtərəfli dinamik inkişafın, xoşbəxt gələcəyin böyük qarantı olduğuna ürəkdən, dərindən, möhkəm inam bəsləyir. Geniş ümumxalq etimadı qazanmış dövlət başçısı İlham Əliyevin beynəlxalq aləmdə qazandığı böyük nüfuzla xalqımız fəxr edir. Azərbaycan xalqı müstəqil Azərbaycan dövlətinin beynəlxalq nüfuzun qorunub saxlanılmasında, daha da inkişaf etdirilərək möhkəmləndirilməsində maraqlıdır. Xalqımız bu inamı hər zaman ifadə edir ki, həm ölkə, həm də beynəlxalq miqyasda əldə olunmuş mühüm siyasi-iqtisadi, mədəni-mənəvi inkişafın uğurla yeni zirvələrə doğru addımlamasında ölkə Prezidenti İlham Əliyev böyük təcrübəyə və möhkəm siyasi iradəyə sahibdir.

***- Yeni Referendum Aktının təbliğatının hansı formada həyata keçirilməsini faydalı hesab edirsiniz?***

- Bütövlükdə "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" Referendum Aktı müstəqil Azərbaycanda dövlət idarəçilik mexanizminin, siyasi sitemin daha da genişləndirilməsi və möhkəmləndirilməsi yolu ilə müstəqilliyimizin inkişafına və ümumiyyətlə, yeni inkişafa təminat verir. Bütün bunlara görə yeni tarixi epoxada Konstitusiyamıza dəyişiklik edilməsi nəzərdə tutulmuş müddəaların, ümumiyyətlə, yeni Referendum Aktının irəli sürdüyü islahatların mahiyyətini xalqımıza çatdırmaq, bu müddəaları Azərbaycan cəmiyyətinin dinamik inkişaf templəri və gələcək perspektivləri ilə birlikdə təbliğ etmək hər bir ziyalının ən mühüm və şərəfli vəzifəsi, borcudur. Dövlət müstəqilliyimizin 25 ili ərzində qazanılmış böyük nailiyyətlər, dünya ictimaiyyətinin gözü qarşısında baş vermiş mühüm dəyişikliklər Referendum Aktının həyata keçirilməsinə tam təminat verir.

## Nazirlər Kabinetində 2017-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri müzakirə edilib

*İclasda, həmçinin Azərbaycanın 2017-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə olunub*



Sentyabrın 22-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadənin sədrliyi ilə Nazirlər Kabinetində 2017-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, həmçinin Azərbaycan Respublikasının 2017-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə edilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclası giriş sözü ilə açan Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə bildirdi ki, gələn ilin dövlət büdcəsi layihəsi son dövrlər dünyada gedən qlobal maliyyə və iqtisadi proseslər nəzərə alınmaqla, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə aparılan uğurlu iqtisadi siyasət nəticəsində əldə olunan nailiyyətlər zəminində tərtib edilib. Layihənin hazırlanmasında dövlət büdcəsinin sosial yönümlüyü əsas götürülüb, əhalinin maddi rifahının daim yaxşılaşdırılması, dövlətin müdafiə qüdrətinin və təhlükəsizliyinin təmin edilməsi, xüsusən qeyri-neft sektorunun inkişafına dəstək verilməsi kimi mühüm amillərə diqqət yetirilib. Sonra maliyyə naziri Samir Şərifov və iqtisadiyyat naziri Şahin Mustafayev gündəlikdə duran məsələlərə dair məruzə ilə çıxış etdilər. Büdcə layihəsi ətrafında aparılan geniş müzakirələrin yekununda əlaqədar nazirlik, komitə, idarə və təşkilatlarla birlikdə müvafiq dövlət proqramları əsasında hazırlanan "Azərbaycan Respublikasının 2017-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2017-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri"nin bəyənilərək "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən büdcə zərfinə daxil olan sənədlər toplusunun Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi qərara alındı.

## Hikmət Babaoğlu: "Venesiya komissiyasının rəyi qeyri-obyektiv və əsassızdır"



"İlk növbədə qeyd etmək lazımdır ki, Venesiya komissiyası Azərbaycanda sentyabrın 26-da keçiriləcək Referendumla bağlı rəy hazırlayarkən qeyri-obyektiv olub, referenduma təqdim olunan məsələləri öyrənməyib, referendumu zəruri edən səbəbləri araşdırmayıb və bu rəyi hazırlayarkən həm Avropa Şurasının öz daxili prosedurlarını pozub, həm də milli dövlətin hüquqi maraqlarını nəzərə almayıb". Bunu SİA-ya "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib. Deputatın sözlərinə görə, sözügedən rəy tamamilə qərəzlidir və obyektiv qəbul edilə bilməz: "Çünki hər bir ölkənin, suveren dövlətin milli hüquq sistemini yeniləşdirməsi, insan hüquqları ilə bağlı təminatı daha da yaxşılaşdırması, idarəetməni tələb olunan şərtlər içərisində daha da optimallaşdırması onun daxili işidir. Belə məsələlər Venesiya komissiyasına təqdim olunacaq və ondan rəy alınacaq məsələlər deyil. Çünki hər bir milli dövlətin içərisində hüquq yaradan əsas onun daxili, sosial, siyasi və hüquqi sifarişindən yaranır. Konstitusiya kimi əsas qanunlara düzəliş xalqın iradəsi ilə, ümumxalq referendumu vasitəsilə həyata keçirilir. Başlıca meyar da məhz bundan ibarətdir. Çox təəssüf ki, Venesiya komissiyası bütün bunları nəzərə almayıb". H.Babaoğlu deyib ki, bu vaxta kimi şahidi olmayıb ki, Avropa Şurasına üzv olan hansısa ölkədə konstitusiyaya dəyişikliklərlə bağlı referendum keçirilərkən Venesiya komissiyası buna rəy versin və yaxud həmin ölkə sözügedən komissiyaya müraciət etsin: "Çünki belə məsələlərlə bağlı milli dövlət kimi bizim Avropa Şurası qarşısında heç bir öhdəçiliyimiz yoxdur. Heç bir beynəlxalq müqavilədə referendum keçirilən zaman Avropa Şurası ilə məsləhətləşmələr tövsiyə edilmir. Azərbaycanın belə bir öhdəçiliyi də yoxdur. Ona görə də Venesiya komissiyası hazırkı mərhələdə Azərbaycanı daha da gücləndirəcək, onu beynəlxalq qlobal təhdidlərdən məhz hüquqi müstəvidə müdafiə edəcək, Azərbaycanda idarəetməni daha da təkmilləşdirəcək institutların yaranmasına bu şəkildə reaksiya verməsi təəccüb doğurur. Bu da bizi sövq edir ki, burada başqa məqsədlərin olduğunu düşünək".

## Jurnalistlərə üzərində "PRESS" yazılan gödəkçələr paylanıb



Azərbaycan Mətbuat Şurası Daxili İşlər Nazirliyi ilə birgə üzərində "PRESS" yazılan xüsusi gödəkçələrin hazırlanmasına başlayıb. Artıq onların müəyyən qismi Şuraya gətirilib. Növbəti hissəsi də yaxın zamanda hazırlanacaq. Bu barədə Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov məlumat verib. Sentyabrın 22-də Mətbuat Şurasında üzərində "PRESS" yazılmış xüsusi gödəkçələrin KİV redaksiyalarına paylanması ilə bağlı toplantı keçirilib. Toplantıda media rəhbərləri də iştirak ediblər. Ə.Amaşov qeyd edib ki, Mətbuat Şurasının Daxili İşlər Nazirliyi ilə birgə yaratdığı monitorinq qrupu mitinqlərdə və küçə aksiyalarında jurnalistlərin peşə fəaliyyətini yerinə yetirmələrinin monitorinqini aparır. Eyni zamanda, bunun üçün yaradılmış şərait də nəzərdən keçirilib. Şuranın sədri deyib: "Monitorinqlərdə tez-tez üzləşdiyimiz məqam budur ki, mitinqi işıqlandıran jurnalistlərin heç də hamısı üzərində "PRESS" yazılmış xüsusi gödəkçələrdə olmurlar. Bu, xoşagəlməz haldır. Çünki nə qədər icazəli xarakter daşısa da, mitinqlər insanların kütləvi şəkildə bir yerə toplaşdıqları aksiyalardır. Burada hər an ekstremal şərait yarana bilər. Jurnalistlərin mitinq iştirakçılarından fərqlənməməsi onların sərbəst fəaliyyətini məhdudlaşdırır, eyni zamanda, təhlükəsizliyinə xələl gətirir. Buna görə də biz Daxili İşlər Nazirliyi ilə birgə bu gödəkçələrin hazırlanmasına qərar verdik. Əvvəllər iki dəfə bu gödəkçələr hazırlanıb. İlk dəfə bunu Daxili İşlər Nazirliyinin dəstəyi ilə etmişdik. Jurnalistlərdən xahiş olunur ki, mitinqlər və digər küçə aksiyaları zamanı mütləq qaydada xüsusi gödəkçələrdə olsunlar. Baş redaktorlar mitinqlərə müxbirlər göndərəndə onların xüsusi gödəkçədə olmalarına ciddi nəzarət etsinlər. Bu yarana biləcək hər hansı xoşagəlməz vəziyyətdə medianın hüquqlarının müdafiəsi baxımından önəmlidir".

## Bratislavada Avropa xəbər agentliklərinin fəaliyyətinin gücləndirilməsi məsələləri müzakirə edilib



Sentyabrın 22-də Bratislavada Slovakiyanın TASR agentliyinin təşkilatçılığı ilə keçirilən konfransda Avropa Xəbər Agentlikləri Təşkilatının (EANA) üzvləri rəqəmsal dünyada informasiya agentliklərinin fəaliyyətinin gücləndirilməsi məsələlərini müzakirə ediblər. AZƏRTAC xəbər verir ki, tədbirə Avropanın 30-dan çox xəbər agentliyinin, o cümlədən Böyük Britaniyanın Press Association, Fransanın France Press, Rusiyanın TASS, Türkiyənin Anadolu, Almaniyanın DPA, Avstriyanın APA, Ukraynanın Ukrinform agentliklərinin rəhbərləri qatılıblar. Konfransda AZƏRTAC-ın baş direktoru Aslan Aslanov iştirak edir. EANA-nın prezidenti, Press Association agentliyinin baş icraçı direktoru Klayv Marşal aparılacaq müzakirələrin üzv agentliklər arasında təcrübə mübadiləsinin artırılmasına töhfə verəcəyinə ümidvar olduğunu bildirib. O, sosial medianın informasiya məkanında üstünlüyü dövründə xəbər agentlikləri qarşısında ciddi məsələlərin durduğunu söyləyib və yaranmış yeni şəraitdən düzgün istifadə edilməsinin zəruriliyini vurğulayıb. TASR agentliyinin baş direktoru Yaroslav Reznik qeyd edib ki, internet-mediada baş verən dəyişikliklər peşəkar informasiya agentliklərinin yeniliklərə daim hazır olması, daha sıx əməkdaşlıq etməsi üçün güclü təkandır. O, konfransda müzakirələrin də bu istiqamətdə gedəcəyini diqqətə çatdırıb. Xəbər agentliklərinin sosial medianın imkanlarından istifadə etməsi məsələsi ilə bağlı Facebook şirkətinin Avropa, Yaxın Şərq və Afrika üzrə media tərəfdaşlıqları bölməsinin rəhbəri Nik Vrenn sosial şəbəkədə media üçün geniş imkanlar yarandığını deyib. O, "instant articles", geniş videofunksiyaları, canlı yayım kimi platformaları buna misal göstərib. N.Vrenn Facebook-un 1,7 milyard istifadəçisinin olduğunu, buraya gündəlik daxil olanların 90 faizinin mobil cihazlardan istifadə etdiyini bildirib. Tədbirdə xəbər agentliklərinin yaydığı fotoların müəllifik hüquqlarının qorunması, robot jurnalistikası, informasiya hazırlanmasında və yayılmasında süni intellektdən istifadə və digər məsələlər müzakirə edilib. Konfransda 2016-cı il noyabrın 15-18-də Bakıda keçiriləcək Dünya Xəbər Agentliklərinin V Konqresinə hazırlıq məsələləri haqqında AZƏRTAC-ın məlumatı dinlənilib.

## Elçin Mirzəbəyli: "Venesiya Komissiyasının rəyi qərəzlidir"



"Venesiya Komissiyasının tələm-tələsik, heç bir əsas olmadan və birtərəfli qaydada rəy açıqlaması bu qurumun fəaliyyət prinsiplərinə qətiyyən uyğun deyil". Bunu SİA-ya açıqlamasında politoloq Elçin Mirzəbəyli deyib. O bildirib ki, belə bir tələsik qərar açıq şəkildə onu sübuta yetirir ki, Venesiya Komissiyasının rəyi qərəzlidir, sifarişlidir və Azərbaycana təzyiq məqsədilə atılmış bir addımdır: "Buna görə də Azərbaycan tərəfi baş verən hadisələri artıq real formada dəyərləndirib, ictimaiyyət də belə qərəzli addımlara özünün birmənalı mövqeyini hər zaman nümayiş etdirir. Diqqət yetirsək, bu rəy o zaman ortaya çıxdı ki, Azərbaycanda qarışıqlıq yaratmağa çalışan bir qrup radikal siyasətçi və radikal dinçilər keçirdikləri aksiyada fiaskoya uğradılar və onların aksiyaları ictimaiyyət tərəfindən heç hansı bir dəstək görmədi. Azərbaycanda keçirilən son sorğular da, o cümlədən ayrı-ayrı xarici ölkələrin, Fransanın sorğu mərkəzinin keçirdiyi sorğular sübut edir ki, Azərbaycan vətəndaşları ölkənin təhlükəsizliyinin möhkəmləndirilməsinə və islahatların sürətləndirilməsinə xidmət edən referendum müddəalarını birmənalı şəkildə dəstəkləyir və bu referendum həm də Azərbaycan xalqının iradəsini ifadə edir. Bu baxımdan Venesiya Komissiyasının tələsik və məqsədyönlü şəkildə Azərbaycana təzyiq göstərmək cəhdi fiaskoya uğrayacaq və hər hansı bir nəticə verməyəcək".

## Deputat:" BMT-nin Azərbaycana məsləhət verməyə mənəvi haqqı yoxdur"



"BMT biabırçı bir təşkilatdır və onun heç bir mənəvi haqqı yoxdur ki, Azərbaycanla bağlı hər hansı bir tövsiyə və ya məsləhət xarakterli fikir səsləndirsin". Bunu Trend-ə Milli Məclisin deputatı Bəxtiyar Əliyev BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi Mişel Forstun Azərbaycanla bağlı qərəzli hesabatına münasibət bildirərkən deyib. B.Əliyev bildirib ki, əgər BMT özünün Təhlükəsizlik Şurasının Ermənistanın işğal edilmiş Azərbaycan torpaqlarından çıxması ilə bağlı qəbul etdiyi qətnaməsinin yerinə yetirilməsini təmin etmirsə, azərbaycanlıların soyqırımı ilə bağlı qətnamə qəbul etmirsə, Azərbaycanın bir milyondan artıq qaçqın və köçkünü, onların haqları ilə bağlı heç bir qərar qəbul etmirsə, BMT ümumiyyətlə danışmamalıdır: "BMT Azərbaycan xalqı qarşısında həmişə üzr istəməlidir ki, sizin yanınızda üzüqarayıq. Xalq anlamır ki, bu təşkilat nəyə və kimə xidmət edir. Xüsusilə məcburi köçkünlər BMT və digər beynəlxalq təşkilatlara etimadlarını çoxdan itirib və bunu da açıq bəyan edirlər ki, bizim beynəlxalq təşkilatlara inamımız yoxdur, çünki onlarda heç bir ədalət yoxdur, onlar ermənilərin dostudur". B.Əliyev əlavə edib ki, istər BMT-nin, istər Venesiya Komissiyasının Azərbaycanda keçiriləcək referenduma bir neçə gün qalmış hansısa fikirlər səsləndirməsi təəccüblərdiricidir: "Səsləndirilən fikirlərlə tanış olanda görürük ki, bunlar hamısı qərəzlidir, birtərəflidir və sifarişlidir".

# "Həmrəy olaq. HƏ deyək"

## NƏSİMİ

Dünən Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Nəsimi rayon şöbəsi rayonun ilk dəfə səs verəcək gəncləri ilə görüş keçirib.

Görüşü giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı ölkəmizin növbəti mühüm əhəmiyyət kəsb edən siyasi proses ərəfəsində olduğunu bildirərək, sentyabrın 26-da ölkəmizdə Azərbaycan Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsi - referendum keçiriləcəyini qeyd edib.





Rayon təşkilatının sədri qeyd edib ki, bugünkü Azərbaycan gənclərinin də başlıca missiyası Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasətə dəstək olmaq və Onun ideyaları ətrafında sıx birləşməkdir. Referenduma təqdim olunan əlavə və dəyişikliklər layihəsində qeyd olunan maddələrin ölkəmizin gələcək inkişafında mühüm rola malik olacağını bildirərək, rayon gənclərini fəal olmağa, uğurlu gələcəyimizə və tərəqqiyə səs verməyə çağırdı.

YAP Nəsimi rayon təşkilatının şura üzvləri Əvəz Ələkbərov və Əfqan Abdullayev tədbirdə çıxış edərək, bildirdilər ki, bu gün Azərbaycan yüksək inkişaf dinamikasına malik güclü dövlətdir. Həyata keçirilən hərtərəfli düşünülmüş, məqsədyönlü siyasət sayəsində Azərbaycan iqtisadiyyatı dünyada gedən proseslərdən asılı olmayaraq, müstəqil şəkildə inkişaf edir. Qeyd olundu ki, Ümummilli Liderin əsasını qoyduğu siyasi kursu uğurla davam etdirən Cənab İlham Əliyevin rəhbərliyi altında respublikamız sosial-iqtisadi inkişafın bütün göstəriciləri üzrə irəliləyişə nail olub. Azərbaycanın uğurlu inkişafı ölkəmizdə insanların hüquq və azadlıqlarının müdafiəsi sahəsində də əsaslı irəliləyişlərlə müşayiət olunur. İlk dəfə səs verəcək gənc seçiciləri fəal iştirak etməyə, xalqımızın xoşbəxt gələcəyi naminə konstitusiyaya ediləcək əlavə və dəyişikliklər "HƏ" deməyə çağırdılar.

Görüşdə iştirak edən gənc seçicilər, birmənalı olaraq, Azərbaycan Prezidenti İlham Əliyevin apardığı daxili və xarici siyasəti daim dəstəkləyəcəklərini və 26 sentyabr 2016-cı il tarixdə keçiriləcək referendumda iştirak edərək, konstitusiyada ediləcək dəyişiklik və əlavələrə səs verəcəklərini bildirdilər.

## QUBA

Dünən 26 sentyabr 2016-cı il tarixdə keçiriləcək Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Quba rayon şöbəsində rayon ağsaqqalları ilə görüş keçirilib.

Görüşü giriş sözü ilə açan YAP Quba rayon təşkilatının sədri Yusif Abidov qeyd edib ki, ölkəmizdə dövlətçiliyin sürətlə və hərtərəfli inkişaf etməsi, Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsi, eyni zamanda, dünya birliyində gedən müasir proseslər dövlət idarəetməsində və cəmiyyət həyatında yeni islahatları meydana çıxarır.

Rayon təşkilat sədri ölkə başçısı İlham Əliyevin düşünülmüş, müdrik və müstəqil siyasi strategiyası nəticəsində Azərbaycanda sakitliyin, əmin-amanlığın hökm sürdüyünü






və ölkəmizin davamlı inkişafa nail olduğunu bildirdi.

Y.Abidov bildirdi ki, hər zaman seçkilərdə fəallıq göstərən Quba rayon ağsaqqalları bu ildə 26 sentyabrda keçiriləcək referendumda da fəal iştirak edərək, əlavə və dəyişikliklərə "HƏ" deyəcək, bununla da Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında daha sıx birləşdiklərini bir daha nümayiş etdirəcəklər.

Görüşdə çıxış edən Quba rayon ağsaqqallar şurasının sədri Həsən Günəşli konstitusiyaya dəyişikliklərin dünyanın inkişaf etmiş, öncül, sabit ictimai mühiti olan ölkələrdə aparıldığını vurğulayaraq, Azərbaycanda da həyatın bütün sahələrində sürətli inkişafın müşahidə olunduğunu bildirdi. Konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərin hər birinin dövlətçiliyimizin inkişafındakı yeniliklərə xidmət edəcəyini diqqətə çatdırdı.

Quba rayon ağsaqqallar şurasının idarə heyətinin üzvü, I Nügədi kənd ağsaqqallar şurasının sədri Faiq Nəcəfov, Quba rayon ağsaqqallar şurasının üzvü İldırım Məmmədov, Şimal bölgəsinin qazisi Hacı Naib çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin son illər çox böyük uğurlar qazandığını və ölkəmizin iqtisadiyyatının inkişafını qeyd ediblər.

Görüşün sonunda Quba rayon ağsaqqallar şurasının üzvü, Zərdabi qəsəbə ağsaqqallar şurasının sədri Quliyev Babakişi Orucəli oğlu 77-ci ildönümü münasibətilə YAP Quba rayon təşkilatı tərəfindən Fəxri fərmanla təltif edildi.

## AĞCABƏDİ

Dünən Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupu üzvlərinin Ağcabədi rayonunun qadın seçiciləri ilə görüşü keçirilib.

Görüşü "Yeni Azərbaycan" Təşviqat Qrupunun Ağcabədi rayon şöbəsinin sədri Rövşən Əhmədov açaraq, bildirib ki, konstitusiyaya təklif olunan dəyişikliklərdə insan hüquq və azadlıqlarının qorunması, milli təhlükəsizliyin təmin edilməsi, dövlət-idarəetmə sisteminin təkmilləşdirilməsi, prezident və parlament seçkilərində vətəndaşların iştirakında yaş senzinin aradan qaldırılması, dövlət və bələdiyyə qurumlarından, onların hərəkət və hərəkətsizliyindən vətəndaşın şikayət etmək hüququ əksini tapıb. Referendum Aktı layihəsində Azərbaycanda birinci vitse-prezident və vitse-prezidentlər postunun yaradılması, prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə artırılması, Prezident səlahiyyətlərini icra edə bilmədikdə, onun vəzifəsinin icrasının birinci vitse-prezidentə verilməsi, prezidentə parlamenti buraxmaq səlahiyyətinin verilməsi və zamanın tələbinə uyğun olaraq, digər dəyişikliklər nəzərdə tutulmuşdur.

Görüşdə Milli Məclisin deputatı Tahir Rzayev çıxış edərək Azərbaycan Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklər barədə nəzərdə tutulmuş dəyişikliklərin layihəsini ətraflı təhlil edərək, nəzərdə tutulan dəyişiklikləri ölkənin gələcək inkişafı üçün müsbət dəyişikliklərə gətirib çıxaracağını diqqətə çatdırdı.

Görüşdə YAP Ağcabədi rayon təşkilatının qadınlar şurasının sədri Radə Qafarova, YAP Ağcabədi rayon təşkilatı gənclər birliyinin sədr müavini Məhsəti Ağayeva, rayon






mərkəzi kitabxanasının əməkdaşı Gülşən Quliyeva, ADPU-nun Ağcabədi filialının tələbəsi Mina Fərzəliyeva çıxış edərək, konstitusiyaya edilən əlavə və dəyişikliklərə müsbət yanaşdıqlarını, təmsil etdikləri kollektivin bütün üzvlərinin 26 sentyabrda seçki məntəqələrinə gələrək, həmrəylik nümayiş etdirərək, təklif olunan əlavə və dəyişikliklərə səs verəcəklərini bildiriblər.

## İSMAYILLI

Dünən Referendum üzrə "Yeni Azərbaycan" Təşəbbüs Qrupunun İsmayıllı rayon şöbəsi qadın seçicilərlə görüş keçirib. Görüşü giriş sözü ilə Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun İsmayıllı rayon şöbəsinin və YAP rayon təşkilatının sədri Əzizə Vahabova açaraq, qeyd edib ki, referendum siyasi mənasına və mahiyyətinə görə dövlət həyatının ən mühüm məsələlərinin ümumxalq səsverməsinə qoyulması, xalqın rəyinin sorğusu, ifadəsidir.

Rayon təşkilatının sədri bildirib ki, konstitusiyaya təklif edilən əlavə və dəyişikliklər insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, idarəetmənin təkmilləşdirilməsi, təhlükəsizliyin daha da möhkəmləndirilməsi, siyasi idarəçiliyin fəaliyyətinin optimallaşdırılması, iqtisadi islahatların səmərəliliyi və davamlılığının təmin edilməsi və s. nəzərdə tutur. Bütün bunlar milli maraqlara və inkişafa xidmət göstərir. İsmayıllı rayonunun seçiciləri, o cümlədən, qadınlarımız bu işdə aktiv olub, 26 sentyabr tarixində seçki məntəqələrinə gələrək, öz gələcəklərinə səs verəcəklər.

Tədbirdə Milli Məclisin deputatı Novruzəli Aslanov çıxış edərək, qeyd edib ki, Azərbaycan Respublikasının Konstitusiyasında xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyi təmin olunur: "Azad və sərbəst yaşayan, demokrtik bir ölkənin vətəndaşı olduğu üçün qürur duyan ölkə əhalisinə söz, vicdan azadlığı kimi imkanları verən bu ali sənəddə bəşəri və demokratik dəyərlər eyni məqsədə yönəldilmişdir"

N.Aslanov qeyd edib ki, möhtərəm Prezidentimiz İlham Əliyevin təklif etdiyi Referendum Aktı layihəsi üzrə edilən əlavə və dəyişikliklər ölkəmizin sivil və modern inkişafına, demokratiyanın dərinləşməsinə, iqtisadi tərəqqi və sosial-iqtisadi yüksəlişə geniş yol açacaq. Referendumun keçirilməsini günün, zamanın tələbi və sosial sifariş olduğunu vurğulayan millət vəkili bildirib ki, Azərbaycan vətəndaşları konstitusiya islahatlarını yekdilliklə dəstəkləyir, referendumun keçirilməsinin xalqın iradəsinə uyğun olduğunu bildirib.

Tədbirdə YAP İsmayıllı rayon təşkilatının qadınlar şurasının sədri Xuraman Qurbanova, qadın seçicilər Təranə






Süleymanova, Gülnarə Mürsəliyeva, Gilas Musayeva, Rəna Məmmədova, Xavər Allahverdiyeva və başqaları çıxış edərək, qeyd ediblər ki, konstitusiyaya təklif edilən dəyişikliklər zamanının tələbidir və Azərbaycan cəmiyyətini indiki reallıqlara uyğunlaşdıraraq, ölkəmizi daha da irəli aparmaq məqsədi daşıyır. Bildirilib ki, bütün siyasi kampaniyalarda fəallıq göstərən qadınlar 26 sentyabrda da mütəşəkkil siyasi qüvvə kimi birlik, həmrəylik göstərəcək, ümumxalq səsverməsində hamılıqla "Həmrəy olaq, "HƏ" deyək!" devizini dəstəkləyəcəklər.

## OĞUZ

Dünən Referendum üzrə "Vətəndaş cəmiyyəti" Təşviqat Qrupunun üzvləri Oğuz şəhər seçiciləri ilə görüş keçirib.

Görüşdə çıxış edən Milli Məclisin deputatı Elşən Musayev bildirib ki, dövlətimizin siyasi-hüquqi və sosial-iqtisadi baxımdan inkişafının sürətli inkişafı həm regionun lider ölkəsi kimi transmilli layihələrin təşəbbüskarı və reallaşdırıcısı kimi qlobal əhəmiyyətli dövlətə çevrilməsi, həm də böyük dövlətlərin diqqət mərkəzinə gələrək, müsbət və mənfi tendensiyaların əsas hədəfi olması Azərbaycanın inkişafını keyfiyyətcə yeni mərhələyə daşıyacaq və təhlükəsizliyini təmin edəcək hüquqi dəyişikliklərin həyata keçirilməsini günün tələbinə çevirir: "Konstitusiyaya təklif edilən dəyişikliklərin günün reallıqlarından irəli gəldiyini bildirən millət vəkili vurğulayıb ki, bu, ölkənin inkişafına, respublikanın gücünün, qüdrətinin artmasına, onun təhlükəsizlik sisteminin möhkəmlənməsinə xidmət göstərən amillərdən biridir."

Tədbirdə çıxış edən Oğuz rayon Ağsaqqallar Şurasının sədri Cuma Cumayev konstitusiyaya təklif edilən əlavə və dəyişikliklərin ölkədə insan hüquq və azadlıqlarının konstitusion təminatının daha da gücləndirilməsinə, demokratik



təsisatların fəaliyyətinin və bütövlükdə, idarəetmə sisteminin təkmilləşdirilməsinə xidmət etdiyini deyib: "Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında sıx birləşib və dövlət başçısının bütün təşəbbüslərini dəstəkləyir. C.Cumayev bütün seçiciləri 26 sentyabrda fəal olmağa və Referendum Aktına səs verməyə çağırıb."

Tədbirdə çıxış edən Mədəniyyət İşçiləri Həmkarları İttifaqının Oğuz Rayon Komitəsinin sədri Anar Hüseynov və Oğuz RMX həkimi Hümbət Əliyev Referendum Aktına səs verəcəklərini bildiriblər.

## ZƏRDAB

Dünən Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Zərdab rayon şöbəsi rayonun Mədəniyyət Evində ilk dəfə səs verəcək gənclərlə görüş keçirib.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının sədri və "Yeni Azərbaycan" Təşviqat Qrupunun Zərdab rayon şöbəsinin rəhbəri Pərvin Mahmudova konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərlə bağlı fikirlərini bildirib. Təklif olunan dəyişikliklərin





bütün ölkə vətəndaşlarının, xüsusən də, gənclərin maraqlarına uyğun olduğunu deyən P.Mahmudova ilk dəfə səs verəcək gəncləri ümumxalq səsvermədə fəal olmağa və səsverməyə çıxarılmış Referendum Aktı layihəsini dəstəkləməyə çağırıb.

Görüşdə çıxış edən "Yeni Azərbaycan" Təşviqat Qrupunun səlahiyyətli nümayəndəsi, Milli Məclisin deputatı Jalə Əliyeva ilk dəfə səs verəcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayaraq, konstitusiyada nəzərdə tutulan dəyişikliklərin tarixi zərurətdən irəli gəldiyini söyləyib. Millət vəkili dəyişiklik olunacaq maddələr barədə geniş məlumat verərək, sentyabrın 26-da keçiriləcək ümumxalq səsvermədə seçiciləri milli maraqlarımızı, dövlət müstəqilliyimizin möhkəmləndirilməsinə, hüquq və azadlıqların daha yaxşı müdafiə olunmasına səs verməyə çağırıb. Tədbirdə çıxış edən YAP Zərdab rayon təşkilatı gənclər birliyinin sədri Ələkbər Kərimov konstitusiyaya təklif edilən əlavə və dəyişikliklərin gənclərin gələcəyi üçün yeni imkanlar açdığını söyləyib: "Biz gənclər bunu çox yaxşı dərk edərək, ümumxalq səsvermədə fəal iştirak edəcək, təklif olunan əlavə və dəyişikliklərə "HƏ" deyəcəyik".

Görüşdə ilk dəfə səs verəcək gənclərin nümayəndələri də çıxış edərək, qarşıdan gələn ümumxalq səsverməsi - referendumda yaxından iştirak edəcəklərini və öz gələcəklərinə səs verəcəklərini bildiriblər.

## CƏLİLABAD

Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi ilə əlaqədar 26 sentyabr 2016-cı ildə keçiriləcək referendumla bağlı "Yeni Azərbaycan" Təşviqat Qrupunun Cəlilabad rayon şöbəsi təbliğat-təşviqat kampaniyası çərçivəsində tədbirlərini davam etdirir. Növbəti tədbir YAP Cəlilabad rayon təşkilatının qərargahında ilk dəfə səs verəcək gənc seçicilərlə keçirilən görüş olub.

Görüşü YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı açaraq, Referendum Aktı layihəsi haqqında məlumat verib və bildirib ki, nəzərdə tutulan dəyişikliklər insan hüquqlarının, vətəndaşların şərəf və ləyaqətlərinin müdafiəsinə aid olması müstəqil Azərbaycan





dövlətinin mənbəyi olan xalqın mənafelərinin daha da möhkəmləndirilməsinə şərait yaradacaqdır.

Görüşdə çıxış edən Milli Məclisin deputatı, "Yeni Azərbaycan" Təşviqat Qrupunun üzvü Malik Həsənov Konstitusiya İslahatlarının Azərbaycan dövlətinin daha da qüdrətlənməsinə və millətimizin tərəqqisinə xidmət etdiyini bildirib. Millət vəkili nəzərdə tutulmuş əlavə və dəyişikliklər barədə gənc seçicilərə ətraflı məlumat verərək, gənclərə ölkə Prezidenti İlham Əliyevin daim diqqət və qayğısı ilə əhatə olunduqlarını vurğulayıb. M.Həsənov çıxışının sonunda bir daha əminliklə cəlilabadlı gənclərin referendum günü həmrəylik nümayiş etdirərək, referenduma "HƏ" deyəcəklərini söyləyib.

Görüşdə gənc seçicilərdən Vüsal Kazımov, Aysun Babayeva, İlahə Rəhimova, Tahir Teymurov, Mirsənan Şahbazov, Rüfanə Qasımova, Elçin Hüseynov, Ziya Quliyev və başqaları təklif olunan dəyişikliklərin Azərbaycanın mənafeyinə xidmət etdiyini qeyd edərək, güclü Azərbaycanın uğurlu inkişafına səs verəcəklərini bildiriblər.

***ZÜMRÜD BAYRAMOVA,
RƏFİQƏ KAMALQIZI,
NƏZAKƏT ƏLƏDDİNQIZI
RÖVŞƏN NURƏDDİNOĞLU,
İSMAYIL QULİYEV***

# “Həmrəy olaq. HƏ deyək”

## AMEA-da referenduma hazırlıqla bağlı iclas keçirilib

AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Elektron zalında 26 sentyabrda keçiriləcək referenduma hazırlıqla bağlı iclası keçirilib. YAP Səbail rayon təşkilatının AMEA ərazi ilk təşkilatı və Gənc Alim və Mütəxəssislər Şurasının təşkilatçılığı ilə keçirilən iclas Azərbaycan Respublikasının Konstitusiyasına təklif olunan əlavə və dəyişikliklərlə bağlı baş tutacaq referendum haqqında elmi müstəvidə fikir mübadiləsi aparmaq məqsədi daşıyıb.

Referendum üzrə “Yeni Azərbaycan” Təşviqat Qrupunun səlahiyyətli nümayəndəsi, AMEA-nın vitse-prezidenti, akademik, millət vəkili İsa Həbibbəyli tədbiri giriş sözü ilə açaraq bildirib ki, müstəqil dövlətçiliyin hərtərəfli inkişaf etməsi, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsi, eyni zamanda, dünya birliyində gedən müasir proseslər dövlət idarəetməsində və cəmiyyət həyatında yeni islahatları həqiqətə çevrilib: “Ölkəmiz müstəqillik dövründə cəmiyyətin inkişafından doğan, zamanın sifarişi kimi meydana çıxan çağırışların işığında məqsədyönlü şəkildə keçirilən ardıcıl və genişmiqyaslı islahatların sayəsində irəli gedərək, bugünkü yüksək inkişaf mərhələsinə gəlib çatmışdır. İnkişafın hər yeni mərhələsi növbəti islahatlara tələbatları doğurmuş və həmin islahatların həyata keçirilməsi də, öz növbəsində, böyük inkişafa təkan vermişdir”.

Azərbaycan Prezidenti İlham Əliyevin “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Referendum Aktından söz açan səlahiyyətli nümayəndə bu layihənin geniş miqyasda ictimaiyyətin müzakirəsinə təqdim edilməsini cəmiyyət həyatında yeni inkişafa malik olmaq zərurəti kimi qiymətləndirib. Çıxışının sonunda İsa Həbibbəyli qarşıdakı referendumda 29 maddə üzrə dəyişikliklərin nəzərdə tutulduğunu qeyd edərək, hər kəsi bu səsvermədə iştirak etməyə, öz vətəndaşlıq mövqeyini nümayiş etdirməyə dəvət edib.

Tədbirdə çıxış edən AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, dosent Famin Salmanov qeyd edib ki, konstitusiyada nəzərdə tutulan dəyişiklik aktında yaş senzinin aradan qaldırılması Azərbaycan dövlətinin öz gəncliyinə inamını ifadə edir: “Müstəqilliyimizin 25 illiyində, məhz de-







mokratik və hüquqi dövlət quruculuğumuzun möhkəmləndirilməsinə hesablanmış referendum seçkiləri mütərəqqi hadisədir. İstənilən bir cəmiyyətdə xalqın firavan yaşaması üçün daima verilən təkliflər tələblərdən irəli gəlməlidir. Bir gənc olaraq, xüsusilə qeyd etmək istərdim ki, bu dəyişikliklər icra orqanlarında gənclərin təmsil olunmasına, gənclərin bilik və potensialının ölkənin inkişafı naminə daha səmərəli yönləndirilməsinə şərait yaradacaq”.

İclasda, həmçinin, AMEA Nəsimi adına Dilçilik İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Cahid İsmayıloğlu, Dilçilik İnstitutunun elmi işçisi Rasim Heydərov, Ədəbiyyat İnstitutunun YAP təşkilatının sədri Xədicə İskəndərli və digərləri mövzu ətrafında çıxış edərək, rəy və təkliflərini səsləndiriblər.

## SİYƏZƏN

Dünən Referendum üzrə “Yeni Azərbaycan” Təşviqat Qrupunun Siyəzən rayon şöbəsi təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə növbəti görüş keçirib.

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Siyəzən rayon təşkilatının və “Yeni Azərbaycan” Təşviqat Qrupunun Siyəzən rayon şöbəsinin sədri rəhbəri Etibar Heydərov konstitusiyaya təklif edilən əlavə və dəyişikliklərlə bağlı ətraflı məlumat verib.

O, qeyd edib ki, sentyabrın 26-da keçiriləcək ümumxalq səsverməsi ölkəmizin siyasi həyatına, idarəetmə orqanlarının fəaliyyətinə mühüm töhfələr verməsi baxımından əhəmiyyətlidir: “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır” deyən Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin əsas meyarı Azərbaycan vətəndaşlarının maraqları, mənafeyi, ölkəmizin dünya miqyasında qüdrətlənməsi, sürətli tərəqqisidir”.

Tədbirdə “Yeni Azərbaycan” Təşviqat Qrupunun səlahiyyətli nümayəndəsi, “SƏS” qəzetinin Baş redaktoru Bəhruz Quliyev çıxış edərək, bildirib ki, dövlət idarəçiliyinin daha səmərəli və keyfiyyətli fəaliyyətinin təminatına yönələn konstitusiya dəyişiklikləri dünyanın ən müasir, modern tələblərini özündə ehtiva edir. B.Quliyev, həmçinin, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə son 13 ildə qazanılan böyük uğurlara, demokratik dövlət quruculuğu prosesində hə-





yata keçirilən geniş islahatlara, ölkəmizin dünya miqyasında artan nüfuzuna, bütün sahələrdə sürətli tərəqqi və digər çoxsaylı uğurlara nəzər salaraq, konstitusiyaya nəzərdə tutulan əlavə və dəyişikliklərin zamanın tələbi olduğunu da görüş iştirakçılarının diqqətinə çatdırıb: “Hazırda Azərbaycan çox ciddi hüquqi-siyasi hadisənin ərəfəsindədir. Sentyabrın 26-da ölkəmizdə ümumxalq səsverməsi - referendum keçiriləcək. Təklif edilən əlavə və dəyişikliklər bir çox istiqamətləri əhatə edir. Referendum Aktı layihəsində əksini tapan məsələlər sahibkarlıq, insan hüquqları, təhlükəsizlik, idarəetmə və digər sahələrdə müasir dövrün çağırışlarına cavab verən islahatların həyata keçirilməsini təmin edəcək. Əsas məsələlərdən biri vitse-prezidentlik institutunun yaradılmasıdır. Bu institut prezident idarəetmə üsulunun tətbiq olunduğu ölkələr üçün vacibdir. Bu yeni qurum özü-özlüyündə daha effektiv və səmərəli idarəetməni təmin edəcək”.

B.Quliyev çıxışının sonunda əminliklə bildirib ki, sentyabrın 26-da keçiriləcək ümumxalq səsverməsində siyəzənlilər konstitusiyaya təklif edilən əlavə və dəyişiklikləri dəstəkləyəcəklər.

Tədbirin davamında çıxış edən seçicilər səsvermə günü fəallıq nümayiş etdirəcəklərini, Referendum Aktına “HƏ” deyəcəklərini bildiriblər.

## GÖYÇAY

Dünən Referendum üzrə “Yeni Azərbaycan” Təşviqat Qrupunun Göyçay rayon şöbəsi Göyçay rayon təşkilatının qərargahında seçicilərlə növbəti görüşünü keçirib. Tədbiri Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatının sədri Sahib Şükürov açaraq, ümumxalq müzakirəsinə çıxarılan Referendum Aktında nəzərdə tutulan əlavə və dəyişikliklər barədə məlumat verib. O, Azərbaycanda, sözün əsl mənasında, hüquqi dövlətin yaradılmasına və vətəndaş cəmiyyətinin formalaşdırılmasına istiqamətlənən konstitusiya dəyişikliklərinin dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, ölkəmizdə insan hüquqlarının





və azadlıqlarının daha da genişləndirilməsinə xidmət edəcəyini söyləyib.

Görüşdə Göyçay rayon Heydər Əliyev Mərkəzinin direktoru Zemfira Əliyeva Azərbaycanda son illərdə müşahidə olunan dinamik inkişafdan danışaraq, Kontitusiyaya müvafiq dəyişikliklərin edilməsinin və milli qanunvericilik bazasının daha da təkmilləşdirilməsinin zəruri olduğunu vurğulayıb.

Rayon veteranlar şurasının sədri Ataş Salahov konstitusiyada qeyd olunan əlavə və dəyişikliklərin ən ümdə məqsədi Azərbaycan vətəndaşlarının rifahının daha da yüksəldilməsi və müstəqil Azərbaycan dövlətçiliyinin qorunmasına istiqamətləndiyini deyib.

Yığıncaqda Milli Məclisin deputatı Elman Nəsirov çıxış edərək, konstitusiyaya edilən əlavə və dəyişikliklərin sosial-iqtisadi əhəmiyyətinə toxunaraq, bildirib ki, bu dəyişiklər konstitusiyamızı daha da zənginləşdirməklə yanaşı, ölkədə insan hüquqları və azadlıqlarının daha da artırılmasına, idarəetmədə balans sistemininin yaradılmasına, habelə, ictimai mənafelər baxımından torpaq mülkiyyətindən daha da səmərəli istifadə olunmasına şərait yaradacaqdır. Milli Məclisin deputatı Sabir Hacıyev də konstitusiyaya təklif edilən əlavə və dəyişikliklərin zamanın tələbi olduğunu vurğulayıb: “İnanıram ki, bütün siyasi proseslərdə öncül sıranı tutan Göyçay seçiciləri bu dəfə də Azərbaycan dövlətinin gücləndirilməsinə, daha effektiv idarəçiliyin formalaşdırılmasına, insan hüquq və azadlıqlarının daha da genişləndirilməsinə, bir sözlə, referenduma çıxarılan əlavə və dəyişikliklərin lehinə səs verəcək. Bütün seçiciləri sentyabrın 26-da keçirilən referendumda aktiv iştirak etməyə çağırıram”.

Ardı Səh. 11

# "Həmrəy olaq. HƏ deyək"

Əvvəli Səh. 10

Dünən Referendum üzrə "Yeni Azərbaycan" Təşviqat Qrupunun Göyçay rayon şöbəsi rayon təşkilatının qadınlar şurası partiyanın qərargahında qadın seçicilərlə görüş keçi-





rib. Görüşü giriş sözü ilə YAP Göyçay rayon təşkilatının qadınlar şurasının sədri Zivər Zeynalova açaraq, Azərbaycan qadınlarının cəmiyyətin aparıcı qüvvələrindən biri olduğunu bildirib. Z.Zeynalova vurğulayıb ki, qadınlar dövlət idarəçiliyində təmsil olunmaqla yanaşı, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Ölkəmizin çox ciddi hüquqi-siyasi hadisə ərəfəsində olduğunu deyən Z.Zeynalova sentyabrın 26-da keçiriləcək ümumxalq səsverməsində Göyçayın qadın seçicilərinin seçki məntəqələrinə yollanaraq daha güclü, daha inkişaflı sabaha səs verəcəklini bildirib.

Tədbirdə Göyçay rayon Ulaşlı- Şıxlı kənd orta məktəbinin müəllimləsi Aynur Mahmudova çıxış edərək bildirib ki, Göyçay qadınları 26 sentyabr tarixində keçiriləcək referendumda da fəal iştirak edəcək, seçki məntəqələrinə gedərək Konstitusiya dəyişikliklərinə "HƏ" deyəcəklər.

Görüşdə Milli Məclisin deputatı Elman Nəsirov son illərdə Azərbaycanın əldə etdiyi mühüm nailiyyətləri, o cümlədən iqtisadi, sosial, siyasi, mədəni və idman həyatında qazanılan uğurları diqqətə çatdıraraq, bu uğurlar fonunda Konstitusiyaya əlavə və dəyişikliklərin zərurətə çevrildiyini söyləyib: "Təklif olunan əlavə və dəyişikliklər Azərbaycan dövlətinin daha da inkişafına, dövlət müstəqilliyinin daha etibarlı qorunmasına, idarəetmənin daha da təkmilləşdirilməsinə və digər mühüm məqsədlərə xidmət edir". Sonda millət vəkili bütün seçiciləri, o cümlədən, göyçaylıları referenduma "HƏ" deməyə çağırıb.

## HACIQABUL

Sentyabrın 22-də Azərbaycan Respublikasının Konstitusiyasına nəzərdə tutulan əlavə və dəyişikliklərlə bağlı Hacıqabul şəhərində görüş keçirildi.

Görüşdə Hacıqabul Bələdiyyələri Şurasının sədri Hüseyn İsmayılov çıxış edərək hacıqabulluları ölkənin ictimai-siyasi həyatında daha da fəal olmağa, xüsusən 26 sentyabrda keçiriləcək referendumda Konstitusiyamıza təklif olunan əlavə və dəyişikliklərə səs verməyə səslədi. Bildirdi ki, bu gün Azərbaycan dövləti inkişaf edir, müasir dünyaya inteqrasiya olunur. Eyni zamanda, insanların hüquq və azadlıqlarının daha geniş mənada qorunması üçün də sözügedən dəyişikliklərə ehtiyac duyulur. Ona görə də əminliklə demək olar ki, Azərbaycan vətəndaşları bu dəyişiklikləri yekdilliklə dəstəkləyəcəkdir: "Çünki xalqımız belə siyasi hadisələrdə həmişə müdriklik göstəribdir."

Görüşdə "Yeni Azərbaycan" Referendum üzrə Təşviqat Qrupunun səlahiyyətli nümayəndəsi, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxış edərək bildirdi ki, Konstitusiyaya təklif olunan dəyişiklik və əlavələrdə insan hüquq və azadlıqlarının təminatını daha da gücləndirən, onun inkişafına rəvac verən kifayət qədər məqamlar öz əksini tapacaq. Belə ki, təklif olunan 23 dəyişikliyin 16-sı, yəni, dörddən üçü insan hüquq və azadlıqlarının qorunması mexanizminin təkmilləşdirilməsi ilə əlaqədardır. Hansı ki, bunlar eyni zamanda iqtisadi hüquqları əhatə edir. Eləcə də digər dəyişikliklərdə də dövlətin iqtisadi maraqları əksini tapır. Məsələn, torpaqlardan səmərəli istifadə etmək bu gün əsas vəzifələrdən biridir. Amma təəssüflə qeyd etməliyik ki, bu sahədə ciddi problemlər var və əkinəyararlı torpaqlar istifadə olunmur. Konstitusiyaya ediləcək yeni dəyişikliklərlə torpaq mülkiyyəti və aqrar sahədə olan fundamental problemlər öz həllini tapmış olacaq.

Görüşdə Birinci Udulu kənd bələdiyyəsinin sədri Ramiz Təhməz çıxış edərək hacıqabulluları Azərbaycan dövlətinin





işıqlı gələcəyi naminə Konstitusiya islahatlarına səs verməyə çağırdı. Əmin olduğunu bildirdi ki, hacıqabullu seçicilər bu dəyişikliklərə "hə" deyəcəklər.

Görüşdə çıxış edən seçicilər də dəyişikliklərlə tanış olduqlarını və Konstitusiya islahatlarına səs verəcəklərini bildirdilər.

***RƏFİQƏ KAMALQIZI,***
***RÖVŞƏN NURƏDDİNOĞLU,***
***İSMAYIL QULİYEV***

# Xalq ermənilərlə bir ağızdan çıxış edənləri rədd edir

*26 sentyabrda bunu görəcəyik*

***Bəlli olduğu kimi, ABŞ Konqresində bu qurumun insan haqları komissiyasının erməni lobbisindən aldığı sifarişinə əsasən, Azərbaycana qarşı qərəzli dinləmələr keçirilib. Həmin dinləmələrlə yanaşı, həmin gün ABŞ Helsinki Komissiyası da bəyanat yayaraq, 8 sentyabrda ermənipərəst konqresmen Kris Smitin Azərbaycan rəhbərliyinə ünvanladığı məktubun mətnini ictimaiyyətə açıqlayıb. Sözügedən məktubu Smitlə yanaşı, Konqresdə Ermənistan üzrə işçi qrupun həmsədri, Dağlıq Qarabağ separatçılarının əsas dəstəkləyicilərindən olan digər konqresmen - Adam Şif də imzalayıb. Məhz bu faktoru incələyərkən, bir daha agah olur ki, əslində, hər iki olayın arxasında, bilavasitə, Amerikanın erməni lobbisi dayanır. Təbii ki, ermənilərin bu addımları Azərbaycan ictimaiyyətini heç də təəccübləndirmir. Çünki bu, faktiki olaraq, düşmən tərəfindən atılan çoxsaylı addımlardan biridir.***

Ölkə ictimaiyyətini hiddətləndirən başqa bir fakt istər-istəməz mövzu ətrafında digər analizlər aparmağı şərtləndirir. Məsələ ondadır ki, ölkəmiz və dövlətçilik maraqlarımız əleyhinə aparılan düşmənçilik kampaniyasında özlərini "müxalifətçi" adlandıraraq, canbaşla ermənilərə nökərçilik edənlərin bu kimi mənfur addımları aşkar şəkildə atılmaqdadır. Bu barədə digər yazımızda qeydlərimizi aparmışıq və bu səbəbdən, sözügedən mövzuda başqa amillər ətrafında gedişlərimizi edəcəyik. Bəli, müxalifət hər yerdə lazımdır və yalnız sağlam müxalifətçiliyin inkişafı dövlətin də inkişafına öz töhfələrini verə bilmək iqtidarındadır. Bu, aksiomadır. Təbii ki, Azərbaycan da hüquqi-demokratik və dünyəvilik prinsiplərinə söykənən bir dövlət kimi beynəlxalq aləmdə öz sözünü deyir, hətta demokratiya, plüralizm, tolerantlıq baxımından, özlərini "demokratiyanın beşiyi" hesab edən başda ABŞ olmaqla, bir sıra Qərb ölkələrini də üstələyir. Azərbaycanda polis insanlara atəş açıb onların həyatlarına son qoymur, Azərbaycanda nə irqi, nə də ki, məzhəb baxımından heç bir problem yoxdur. ABŞ-da bəlli qərəzlərə söykənən dinləmələrin keçirilməsi əsnasında "ana müxalifəti" təmsil edən partiya sədrinin - Ə.Kərimlinin oğlu Türkel Kərimlinin, Xədicə İsmayılın XƏYANƏTKARCASINA (!) işğalçı, separatçı ermənilərlə bir yerdə ölkəmizin maraqlarını satması heç bir çərçivəyə sığmır!

## Bu, həmin konqresdir ki, Azərbaycana qarşı bədnam "907-ci düzəliş"i qəbul edib!



Dəhşətli məqam da budur ki, erməni lobbisinin pulunu siyasi korrupsiya vasitəsilə mənimsəyən ermənipərəst konqresmenlər həmin puldan "ana müxalifət" təmsilçilərinin qarşısına, necə deyərlər, tulapayı da atırlar. "İnsan haqları", "demokratiya" bağırmaları üçün...

Bu gün Azərbaycanda "demokratik dəyərlər" axtarışına çıxan ermənipərəst konqresmenlər hazırda erməni pulu ilə dövlət maraqlarına qarşı qısqırdılan dağıdıcı müxalifətin himayədarlarına çevriliblər. Bu, həmin konqresdir ki, Azərbaycana qarşı bədnam "907-ci düzəliş"i qəbul edib. Həmin mənfur sənədin qəbulu, məhz Ə.Kərimlinin də təmsil olunduğu Elçibəy iqtidarı dövründə (1992) ABŞ-dakı erməni lobbisinin diktəsi ilə baş tutub!

Lakin gəlin görək, bu ölkənin maraqlarını, dəyərlərini qoruyan iqtidar daha hansı işlərə imza atır. Məsələnin də vacib tərəfi budur ki, ölkə Prezidentimiz Bişkekdə işğalçı Serj Sarkisyanı yerində oturdur, "ana müxalifət" təmsilçiləri isə ABŞ Konqresində ölkəmiz və dövlətimiz əleyhinə erməni daşnaklarla, hnçaklarla, ASALA-çılarla eyni mövqedən çıxış edirlər. Bax, heç bir çərçivəyə sığmayan fakt da budur və həmin fakt özünü tam çılpaqlığı ilə ortaya qoymuş olur.

Hər halda, düşündürücü bir hadisədir və belə olan təqdirdə, çıxış yolu bir olaya qalır - bu cür satqın, dəyərsiz, xəyanətkar, mənfur müxalifət ünsürlərini rədd etmək! Bütün hallarda 26 sentyabr referendumunda bunu görəcəyik...

***RƏFİQƏ KAMALQIZI***

# Qərb səfirliklərinin təlimatlarından doğan başıpozuq müxalifət ambisiyaları

***İ**ğtişaşlar, qarşıdurmalar yaratmaq kimi qeyri-sivil və anti-konstitusion əməlləri hər zaman özünə əsas mübarizə vasitəsi seçən dağıdıcı müxalifət bütün dövrlərdə utopik arzularına çatmaq üçün bu metodlardan yararlanmağa cəhd göstərib. Ötən illərdə keçirilmiş əksər seçkilər ərəfəsində radikal müxalifət partiyalarının ölkədə süni gərginlik yaratmağa çalışması barədə kifayət qədər faktlar qeyd etmək olar.*



İndiki radikal düşərgə 1992-ci ildə, məhz qeyri-sivil metodlardan yararlanaraq, zorla iqtidara yiyələnmişdi. Ona görə də iqtidarda çox qala bilmədi. Hakimiyyətdə olduğu məlum keçmişi ilə xalqın etimadından birdəfəlik məhrum olan, əsl müxalifət imicini itirən bu düşərgənin üz qarasına çevrilmiş AXCP sədri Ə.Kərimli və onun yedək qurumu hesab olunan "Milli Şura" bu dəfə Referendum Aktı layihəsin qara yaxmağa çalışırlar. Əbəs yerə deyil ki, bu prosesə Müsavat da qoşulub. Lakin bu qurumlar ayrı-ayrılıqda Azərbaycanın inkişaf və tərəqqisini sürətləndirmək məqsədi ilə həyata keçiriləcək referenduma qarşı çıxmağa çalışırlar. Bu isə düşərgənin pərakəndəliyinin bariz göstəricisidir. Beləliklə, ölkənin yüksələn imicinə Qərb səfirliklərinin, xüsusilə ABŞ, Böyük Brtitaniya və Fransa səfirliklərinin dəstəyi və təlimatları ilə zərbə vurmağa çalışan xəyanətkarlar toplumu, hələ də ümid edirlər ki, siyasi uğur qazanacaqlar. Amma bunun belə olmayacağını daha öncələr çıxa bilmədikləri sınaqlardan da yaxşı bilirlər. Fəqət, bütün bunlara baxmayaraq, dağıdıcı zümrə özünün "nicat yolunu" yalnız qarşıdurmalarda iğtişaşlar törətməkdə görür və bunun üçün, hətta anti-Azərbaycan mövqedə dayanan xarici dairələrlə əməkdaşlıq edir. Sirr deyil ki, Azərbaycanın son bir neçə ildə keçdiyi dinamik inkişaf yolu, regionun lider dövlətinə çevrilməsi, insanların sosial rifahının yaxşılaşması, müstəqil siyasət yürütməsi bir sıra xarici siyasi dairələrdə olduqca narahatçılıq doğurur. Xüsusən, ermənipərəst mövqedə dayanan, o cümlədən, müsəlman dünyasının tərəqqisində maraqlı olmayan dairələr zaman-zaman Azərbaycanda qarışıqlıq yaratmaq üçün müxtəlif üsullara əl atıblar.

## Vaxtilə Qərbi tənqid atəşinə tutanlar indi ona mədhiyyələr qoşurlar



Dağıdıcı müxalifətin xarici dairələrlə yenidən bazarlığa getməsi arxasında onlara verilən vədlər dayanır. Halbuki bir müddət bundan öncəyə qədər, xüsusilə, 2013-cü ilin prezident seçkilərindən sonra AXCP-"Milli Şura" cütlüyü, o cümlədən Müsavat rəhbərliyi öz mətbuatında, xüsusilə, Qərbi tənqid atəşinə tutmaqla məşğul idi. Bu gün isə həmin Qərbə mədhiyyələr qoşurlar. Bu gün radikal müxalifət qaranlıq dairələrin, o cümlədən, antiazərbaycançı şəbəkənin tapşırığını yerinə yetirməyə cəhdlər göstərir. Lakin onlar yenə də unudurlar ki, Azərbaycanda ictimai-siyasi vəziyyət tamamilə fərqlidir. Respublikamız demokratik yolla inkişaf edir, vətəndaşların hüquq və azadlıqları yüksək səviyyədə təmin olunub. Azərbaycanda demokratiyanın əsas göstəricilərindən sayılan söz azadlığı təsbit edilib. Elə bu azadlığın nəticəsidir ki, radikal müxalifət mətbuatı istədiyini yazır. Digər tərəfdən, Azərbaycanda vətəndaşların sosial rifahının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılıb və bu, davam etdirilməkdədir.

## Biz bu faktoru sentyabrın 26-da bir daha görəcəyik

Əslində, bu gün dağıdıcı müxalifət dediyimiz partiyaların sıralarında kiçik bir qrupdan başqa kimsə qalmayıb. Çünki radikal düşərgəyə cəmiyyətdə inam yoxdur. Bu partiyalar qeyri-sivil mübarizə metodları seçdiklərindən, ortaya aydın fəaliyyət proqramı qoya bilmirlər. Məram və məqsədi ölkədə vəziyyəti gərginləşdirməyə xidmət edən addımlar atmaqdan başqa bir şey deyil. Ona görə bu düşərgə özünü cəmiyyətdən tamam təcrid edib. Digər tərəfdən, ölkə vətəndaşlarının mütləq əksəriyyəti Prezident İlham Əliyevin siyasi xəttini, Onun təşəbbüslərini, birmənalı olaraq, dəstəkləyir. Məhz bu amil dağıdıcı müxalifətin sosial bazasının tükənməsinin əsas səbəblərindəndir. Biz bu faktoru sentyabrın 26-da bir daha görəcəyik.

***Rövşən NURƏDDİNOĞLU***

# Əli Kərimli qorxaq, Cəmil Həsənli isə onun buladığı quyruğudur

## *Yaxud AXCP-nin marioneti olan "Milli Şura" niyə mitinqdən imtina etdi?*

***Bəlli olduğu kimi, AXCP-nin egidası altında fəaliyyət göstərən "Milli Şura" bir müddət əvvəl daha bir mitinq keçirəcəyini bəyan etsə də, sonradan bu fikrindən imtina etdi. Özü də Müsavat partiyasının da həmin fikir əsnasında birgə mitinq keçirmək təklifinin ardınca. Hər iki siyasi təşkilatın aralarında dərin uçurumun olmasına rəğmən, "Məhsul" stadionunda keçirilmiş mitinqlərdə Müsavat partiyası üzvləri "Milli Şura"nın mitinqinə qatılmışdılar. Görünür, bu, A.Hacılının Ə.Kərimliyə tərəf atdığı növbəti yaxınlaşma fəndi idi və məlum səbəblərə görə, bu, onda alınmadı. AXCP və Müsavat arasındakı münasibətlərin düzəlməsi isə qeyri-mümkündür. Hətta Ə.Kərimli A.Hacılıya qarşı addım atsaydı belə, müsavatçıların əksəriyyəti bu addımı dəstəkləməyəcəkdilər. Ona görə də, indi, yəni mitinq qərarından imtina edildikdən sonra hər iki partiyanın arasında sosial şəbəkədə müharibəyə başlanılıb.***

## Hazırda ikitərəfli zərbədən ayıla bilmirlər

İndi isə qayıdaq AXCP-nin və onun marioneti olan "Milli Şura"nın mitinqdən imtina etməsi məsələsinin digər tərəfinə. Çünki "Milli Şura"nın planlaşdırdığı növbəti mitinqdən imtina etməsi, bütövlükdə, bu quruma dəstək verənlər üçün də gözlənilməz olub. Daha dəqiq desək, "Milli Şura"da təmsil olunanlar və onun təəssübkeşləri, o cümlədən, qurumda dominantlıq təşkil edən AXCP üzvləri mitinqdən imtina qərarına sərt etiraz edirlər, hətta Ə.Kərimlini qorxaqlıqda belə ittiham etməkdən çəkinmirlər. Halbuki bir müddət öncə, "facebook"da "Milli Şura" təmsilçiləri adından Bakı Şəhər İcra Hakimiyyətinə növbəti mitinqə yer ayrılması ilə bağlı rəsmi müraciətin mətni yayılmışdı. Qurum rəhbərliyi isə vəziyyətin onların xeyrinə olmadığını gördükdən sonra yalan uyduraraq tərəfdarlarına deyiblər ki, guya bu məktub hər ehtimala qarşı göndərilib və onların mitinq keçirmək qərarını yalnız özləri elan edə bilər (?-R.R.). Sual yaranır, məktuba cavab gəlməmiş mitinqdən imtina etməyin özü hansı anlamı daşıyır? Bəlkə mitinqə icazə veriləcəkdi, bəs onda necə olacaqdı? Bu faktorun özü tərəfdarlarla "siçan-pişik" oyununa çevrilmirmi? Göründüyü kimi, Ə.Kərimli və C.Həsənli cütlüyü ciddi qorxu içindədir və hazırda ikitərəfli zərbədən ayıla bilmir. Birinci zərbə mitinqlərin uğursuz nəticələnməsi, ikinci zərbə isə mövcud vəziyyətləridir.

## Xədicə İsmayıl: "Niyə..?"



Bu arada "Milli Şura"nın qatı tərəfdarlarından olan X.İsmayıl da Ə.Kərimlini ittiham edib. Belə ki, o, "facebook"da mitinq təşkilatçılarına "Niyə" sualını ünvanlayıb. O cümlədən, dəqiq ünvanlara adları ilə müraciət etsə belə, yenə də cavab ala bilməyib. Hətta C.Həsənli də X.İsmayıldan yaxa qurtarmaq üçün başını götürüb haradasa gizlənib.

Nəticədə sosial şəbəkə istifadəçiləri X.İsmayıla məsləhət görüblər ki, bu sualı Ə.Kərimliyə versin. SİTAT: "Onu Ə.Kərimlidən soruşsun, bir zəhmət". Çünki faktiki "Milli Şura"da təmsilçiliyin böyük qismi cəbhəçilərə aiddir. Sədr C.Həsənlidən daha çox Ə.Kərimli bu qurumda ağalıq edir".

Necə deyərlər, milçək itdən əl çəksə də, it milçəkdən əl çəkmədiyi kimi, X.İsmayıl da C.Həsənli-Ə.Kərimli cütlüyündən əl çəkməyərək, suallarını yağdırır: "BŞİH-ə imtina məktubu göndərilməyibsə, "Milli Şura" qərarına yenidən baxsın deyirəm. Siz nə deyirsiz?" Lakin Ə.Kərimli və tərəfdarları bu çağırışa, ümumiyyətlə, susqun davranıblar. Beləliklə, sualları və çağırışları cavabsız qalan X.İsmayılın səbir kasası dolub və o, "Milli Şura"nı mitinqlə bağlı oyun oynamaqda suçlayıb: "Bilmirəm, məni daha çox dilxor edən nədir? Buradakı müxalifətin mitinqlə bağlı oyunu, yoxsa xaricdə oturub "niyə mitinq eləmirsiz" deyənlər. Barı onlar sussunlar".

## Əli Kərimli əsas günahkarı tapdı - Arif Hacılı!

Hətta sabiq səfir, xəyanətkar Arif Məmmədov da X.İsmayıla "ürək-dirək" verərək, Ə.Kərimlinin mitinqdən imtina qərarının taktika ola biləcəyinə işarə etsə də, bu qənaət onu sakitləşdirməyib və bunun xüsusi taktika (???-R.R.) olmadığını dilə gətirib. Amma bu da heç nəyə təsir etməyib və sən demə, taktika olmasına olub, amma Müsavata qarşı! Nəticədə, Ə.Kərimli susqunluğu ortaya ataraq, öz uğursuzluqlarını da Müsavat başqanı A.Hacılının belinə yükləyərək, onu ittiham edib: "Bir başqasından xahiş etməmişik ki, bizim əvəzimizdən 24 sentyabra mitinq elanı versin. Bir müddət öncə, sentyabrın 11-i və 17-də mitinq keçirməklə bağlı "Milli Şura" təmsilçiləri Bakı Şəhər İcra Hakimiyyətinə məktub göndərib. "Milli Şura" rəhbərliyindən kimlərsə xalqı 24 sentyabrda mitinqə çağırıbmı? Xeyr, olmayıb belə bir şey".

Ancaq Ə.Kərimli burada da yalan danışıb və hətta bəzi cəbhəçilər Kərimlinin tribunada mitinq zamanı kənara çəkilərək Gültəkin Hacıbəyli və Eldəniz Quliyevlə növbəti mitinqin keçirilməsi barədə ayaqüstü məsləhətləşmələr də aparıb. Bu isə aşkarlanaraq, mitinq iştirakçılarına bəlli olub. İndi isə düşdüyü vəziyyətdən çıxmaq üçün qorxudan yalan danışan Ə.Kərimli ciddi sarsıntı keçirir. C.Həsənli isə haradasa onun quyruğu qismində sağa-sola bulanır...

***R. RƏSULOV***

# “Milli Şura”nın “çətiraltı və klyonka mitinqi”

## *Yaxud növbəti dəfə biabır olan radikallar təxribatçı, “İŞİD”-çi, gülənçi olduqlarını, terrora dəstək verdiklərini açıq şəkildə ortaya qoydular*

***Məlum olduğu kimi, sentyabrın 17-də 10 minlik mitinqdən dəm vuran “Milli Şura” rəsmi məlumatlara əsasən, 800 nəfərlə mini aksiya keçirdi. Öncə, onu qeyd edək ki, Azərbaycanda normal toy məclislərində bundan artıq adam yığışır. Hətta, elə olur ki, yas məclislərində 1000-2000 insan iştirak edir. Lakin “Milli Şura” mitinqinə heç bir toy məclisi qədər adam yığa bilmədi. Bu, bir daha sübut edir ki, Azərbaycanda “Milli Şura”nın sosial dəstəyi yoxdur və onların keçirməyə cəhd etdikləri mitinq tipli yığıncaqları konkret missiyanın reallaşmasına hesablanıb. Bütün bunlardan əlavə “Milli Şura”nın keçirdiyi mitinq bir sıra məqamlarla yadda qaldı:***



Birincisi, mitinqdə Azərbaycan bayrağına hörmətsizlik edilib. Azərbaycan bayraqları ayaqlar altına atıldı, meydana gələn olmadığından, onları götürən olmadı.

İkincisi, “Milli Şura” mitinqdə dövlətə itaətsizlik çağırışı etdi. “Milli Şura”nın koordinasiya mərkəzinin üzvü Rövşən Əhmədli hazırda məhkəməsi davam edən T.Bağırzadənin müraciətini səsləndirərkən, açıq şəkildə inanclı şəxsləri dövlətə qarşı itaətsizliyə səsləyib. Mitinqdə tez-tez “Allahu-Əkbər” şüarlarının eşidilməsi də müəyyəm məsələlərə işarə edirdi.

Üçüncüsü, “Milli Şura”nın “İŞİD” siması açıldı. Belə ki, siyasi xarakterli mitinqdə dindarlar təşəbbüsü ələ almışdılar. Elə T.Bağırzadənin bəyanatının oxunması, onu deməyə əsas verir ki, Ə.Kərimli radikal dindarlara bəyanat oxumaları üçün şərait yaratmaqla həm də özü radikal dindarlardan sosial baza kimi istifadə etmək niyyətindədir. Nəzərə alsaq ki, həmin dindarlar bu gün də “İŞİD” sıralarında başqa dövlətin suverenliyini pozmaqla məşğuldur, deməli, bu şəxslər həm də beynəlxalq terrorçudurlar. Belə çıxır ki, Ə.Kərimli beynəlxalq terror təşkilatı ilə əməkdaşlıq edir. Necə ki, meydanda səslənən “Ya Əli, Ya Hüseyn!”, “Allahu-Əkbər!”, “Dində təqvadır, ürəkdə davadır!” şüarları da yeqin Qərb demokratiyasının təməl prinsipləri, ABŞ və Avropa İttifaqının fəaliyyət istimaqətlərini müəyyənləşdirən kəlmələr sayılmaz əslə. Hazırda məhkəmə prosesi gedən T.Bağırzadənin mitinq iştirakçılarına müraciəti oxunanda isə “Məhsul”, sanki illərlə əvvəlki Nardarandakı İmam Hüseyn meydanına çevrilmişdi, çünki “Azadlıq!”, “İstefa!” bağırtılarını “Allahu-Əkbər!”, “Təkbir!” qışqırtıları üstələmişdi.

Dördüncüsü, Ə.Kərimli ilə “NİDA”-çılar arasında mitinq qalmaqalı baş verib. Buna səbəb Ə.Kərimlinin “NİDA” hərəkatı ilə bağlı qalmaqal yaradacaq qərar qəbul etməsi olub. Yəni “NİDA” fəalı Ülvi Həsənlinin 11 sentyabr mitinqindəki nitqi Ə.Kərimlinin xoşuna gəlməyib. O, bundan sonrakı nümayişlərdə çıxış üçün “NİDA”-çılara yer verilməməsi haqda göstəriş verib. AXCP sədrinin “MŞ” rəhbərliyi ilə razılaşdırılmadan verdiyi bu qərar isə qurumun koordinasiya mərkəzinin üzvləri arasında ciddi narazılığa səbəb olub. Belə ki, “MŞ”-nın bəzi üzvləri bu qərarın yanlış olduğunu bildiriblər. Bütün bunlara baxmayaraq, Ə.Kərimli artıq qərarın verildiyini və “NİDA” üzvlərinə “Milli Şura”nın təşkil etdiyi heç bir tədbirdə çıxış haqqı verilməyəcəyini bəyan edib. Ə.Kərimli Ülvi Həsənlini işarə edərək, “Ağzından su tökülən, dili söz tutmayanlar mitinqlərdə çıxış edə bilməz”, - deyə iclasa yekun vurub. Ə.Kərimlinin bu addımı qarşı tərəfdə - “NİDA” üzvləri arasında xoş qarşılanmayıb. Onlar bu qərarı “NİDA”-çılara qarşı hörmətsizlik kimi qiymətləndiriblər.

Beşincisi, “Milli Şura” hər zamankı kimi bu dəfə də mitinqdən sonra təxribat törətməyə çalışdı. Lakin xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarının qanuni tələblərinə qəsdən tabe olmayaraq, hüquqazidd hərəkətlərə yol veriblər. Görülmüş tədbirlərlə qanunsuz əməllərin qarşısı alınıb və bu zaman bir neçə nəfər saxlanılıb.

Bir sözlə, Müsavat, ALP, AMİP, ADP, KXCP və digər partiyalar tərəfindən boykot edilən mitinq böyük biabırçılıqla fiaskoya uğradı. “Milli Şura”nın bu mitinqi tarixə “çətiraltı və klyonka mitinqi” kimi düşdü. Növbəti dəfə biabır olan radikallar təxribatçı, “İŞİD”-çi, gülənçi olduqlarını, terrora dəstək verdiklərini açıq şəkildə ortaya qoydular.

***“SƏS” Analitik Qrupu***

---

# Taleh Bağırovun məhkəməsində təqsirləndirilən şəxs zaldan çıxarılıb

***Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində Taleh Bağırov, Fuad Qəhrəmanlı və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib. APA-nın məlumatına görə, hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən prosesdə Sabunçu rayon Polis İdarəsinin Post Patrul Xidməti Bölüyünün əməkdaşı Xəyyam Camalov şahid qismində ifadə verib. O bildirib ki, ötən il noyabrın 5-də bir qrup şəxs polis idarəsinin qarşısına toplaşaraq Taleh Bağırovun müavini Elçin Qasımovun azadlığa buraxılmasını tələb edib. Həmin şəxslər daş və dəmir parçalarından istifadə edərək polis əməkdaşlarına xəsarət yetiriblər.***



Zərər çəkmiş şəxs qismində tanınmış Camalov Xəyyam Xalid oğlu iş üzrə ibtidai istintaqa verdiyi ifadəsində göstərib ki, həmin tarixdə tabeliyində olan əməkdaşlarla birlikdə “Tofiq Bəhramov” adına stadionda tədbirdə olarkən oyunun bitməsinə 10 dəqiqə qalmış Sabunçu RPİ-nin növbətçi hissəsindən bir qrup şəxsin idarənin qarşısına yığılaraq ictimai asayişi pozmaları və iğtişaş törətmələri barədə məlumat verilib, bundan sonra tabeliyində olan heyətlə birbaşa Sabunçu RPİ-yə gəlmiş və bir qrup şəxsin idarənin qarşısında toplaşaraq nalayiq sözlər, şüarlar səsləndirdiklərinin şahidi olub. Həmin şəxslər Elçin Qasımovun azadlığa buraxılmasını tələb edərək, əks təqdirdə zor tətbiq edəcəklərini bildirib və onlara daşlar atmağa başlayıblar. Bu zaman Sabunçu RPİ-nin əməkdaşı Afiq Şükürov alın nahiyəsindən xəsarət alıb, daşlardan biri isə onun sağ əlinin ovuc nahiyəsinə dəyərək qanadıb. Bir qrup şəxs idarəyə girmək istədikdə Çevik Polis Alayının əməkdaşlarının köməyi ilə qrup dağıdılıb, idarəyə girməyə çalışan və daş atan şəxslərdən fəalları saxlanılaraq ictimai asayiş bərpa olunub.

Daha sonra Sabunçu rayon Polis İdarəsinin əməkdaşı Elnur Şərifov şahid və zərərçəkmiş kimi ifadə verib. O da oxşar ifadə verib. İstintaq zamanı Şərifov Elnur Elman oğlu ifadəsində 05 noyabr 2015-ci il tarixdə Sabunçu rayon polis idarəsinin qarşısında iğtişaş törədənlərdən tanımadığı bir neçəsinin əllərində olan daş, dəmir və taxta parçaları ilə onu vurduğunu və bədəninin müxtəlif nahiyyələrindən xəsarət aldığını, kütləni qızışdıran isə “Ağaəli” adlı şəxsi tanıdığını göstərib.

Təqsirləndirilən Zakir Mustafayev isə həmin şəxsin ona işgəncə verdiyini deyib. Bildirib ki, o, Sabunçu rayon Polis İdarəsində olarkən E. Şərifov hicablı qadınları təhqir edib. Bundan qəzəblənən təqsirləndirilən şəxslər və yaxınları isə şahidə etiraz ediblər. Təqsirləndirilən A. Hüseynov onun üzünə tüpürüb. Sonra prosesdə fasilə elan olunub.

Fasilədən sonra hakim Abbas Hüseynova xəbərdarlıq edib və bildirib ki, dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq o, şahidi və dövlət ittihamçısını təhqir edib: “Mən bayaq görməmişəm. Sonra mənə dedilər ki, prokuroru da təhqir etmisən. Buna görə sənin zaldan çıxarılmağınla bağlı qərar qəbul edirik”.

A. Hüseynov isə gərginliyi qarşı tərəfin yaratdığını iddia edib və nalayiq hərəkəti bilərəkdən etdiyini etiraf edib. Hakim isə bildirib ki, bütün məsələlər qanunla həll olunmalıdır. Fuad Qəhrəmanlı bildirib ki, adamların üzünə tüpürülməsi faktının üstündən keçmək lazımdır. Hakim isə bildirib ki, bu, Fuad Qəhrəmanlının şəxsi fikirdir və onlar qanuna tabedirlər. Daha sonra A. Hüseynov zaldan çıxarılıb.

Təqsirləndirilən şəxslər isə onun iştirakı olmadan prosesin keçirilməsinə etiraz ediblər.

Onlar bildiriblər ki, belə olsa, prosesdə iştirak etməyəcəklər və vəkillərindən imtina edəcəklər. Hakim isə bildirib ki, onlar iclaslarda iştirak etməlidirlər. Vəkillərdən imtina etsələr, onlara başqa vəkillər təyin olunacaq. Vəkillər də A. Hüseynovun iştirakı olmadan iclasın keçirilməsinə etiraz ediblər. Bildiriblər ki, şahidlərin çoxu Abbas Hüseynovla bağlı ifadə verdikləri üçün onun iştirakı olmadan iclası keçirmək düzgün deyil. Onlar iclasın təxirə salınmasını və onun iştirakının təmin olunmasını istəyiblər. Hakim prosesi sentyabrın 23-nə təxirə salıb və A. Hüseynov müraciət etdiyi təqdirdə onun iştirakının təmin oluna biləcəyini deyib.

## 76 yaşlı qadını stəkanla qətlə yetirənlərə hökm oxundu

***Bakı Ağır Cinayətlər Məhkəməsində Bakıda 76 yaşlı qadını stəkanla qətlə yetimməkdə təqsirləndirilən Vüsal İsayev və Şəmsi Məhərrəmovun cinayət işi üzrə məhkəmə prosesi sona çatıb. Trend-in məlumatına görə, hakim Rasim Sadıqovun sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı çıxış edib. Prokuror çıxışında məhkəmədən hər iki şəxsə 20 il cəza istəyib. Məhkəmənin hökmü ilə Vüsal İsayev 20 il, Şəmsi Məhərrəmov isə 19 il müddətinə azadlıqdan məhrum edilib.***



Qeyd edək ki, bu il aprel ayının 21-də 76 yaşlı Nelli Sultanovanın qulaq nahiyəsində əzilmiş xəsarətləri olan meyiti yaşadığı Suraxanı rayonunun Hövsan qəsəbəsindəki mənzilində tapılıb. Polis və prokurorluq orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində onun qonşusu V.İsayev və Bakı şəhər sakini Şəmsi Məhərrəmov tərəfindən tamah məqsədilə qətlə yetirilməsi müəyyən edilib və onlar tutulublar. V.İsayev və Ş.Məhərrəmov evdən götürdükləri 750 manat pulu, bir ədəd qızıl üzük, iki ədəd qızıl sırğanı təhvil veriblər. Məlum olub ki, qonşusu V.İsayev və Ş.Məhərrəmov N.Sultanovanı stəkanla qətlə yetiriblər. V.İsayev stolun üstündəki stəkanı götürərək N.Sultanovanın sol gicgah nahiyəsinə bir neçə dəfə vuraraq onu öldürüb.

# “Milli Şura” və Müsavatın mitinq oyunbazlıqları...

## *Faktlar radikal düşərgənin hansı vəziyyətdə olduğunu bir daha təsdiqlədi*

***Ötən həftənin şənbə və bazar günləri AXCP-nin egidası altında fəaliyyət göstərən “Milli Şura”nın və Müsavat partiyasının ayrı-ayrılıqda keçirdikləri mini aksiyaları elə ilk baxışdanca ictimai rəyin düşüncəsində növbəti siyasi oyunbazlıq assosiasiyaları doğurdu. Əslində, bu gözlənilən idi ki, düşərgədə bir-birinə qarşı amansız düşmən münasibətində olan hər iki siyasi qurum növbəti dəfə uçurum astanasında olduğunu öz fəaliyyətləri ilə sübuta yetirmiş oldu. İstər AXCP sədri Ə.Kərimlinin və onun siyasi kuklası rolunu ifa edən C.Həsənlinin, istərsə də Müsavat partiyasının eks-başqanı İ.Qəmbərin və onun saxtakarlıq yolu ilə başqanlığa gətirdiyi sələfi A.Hacılının antidövlətçilik çağırışları normal düşüncəli ictimaiyyət tərəfindən qətiyyən qəbul olunmadı. Bu, faktlara və rəqəmlərə söykənir. Təkcə “Milli Şura”nın və Müsavatın bir gün ara ilə keçirdikləri mitinqlərindəki insan sayına nəzər salsaq, nəyin nə yerdə olduğu kifayət qədər müəyyənləşmiş olar.***





### Müsavat və “Milli Şura”nın fotoşoplu “kütləsi”

Başqa tərəfdən, diqqət etsək görərik ki, bəzi adamlar həm “Milli Şura”nın, həm Müsavatın ayrı-ayrılıqda, bir gün fərqi ilə keçirdikləri mitinqində iştirak ediblər. Eyni adamların iki fərqli siyasi düşmən olan qurumun mitinqində iştirak etməsi göstərir ki, onların böyük əksəriyyəti muzdlu insanlardır və bu barədə çoxsaylı faktlar var. Daha dəqiq desək, “Milli Şura” ilə Müsavat arasındakı mitinq yarışının, əslində, səbəbi ayrılan vəsaitlərin bölüşdürülməsi və ayrı-ayrı qüvvələr tərəfindən həmin qruplara ötürülən vəsaitlərin silinməsidir. Belə ki, mitinqlərin təşkilinə nə qədər vəsaitin ayrılması ilə bağlı artıq mətbuatda da kifayət qədər məlumatlar gedib ki, onların hər biri dəqiq sübutlara söykənir. Yəni qaragüruhçular həmin vəsaitlərin köməyi ilə insanları mitinqə cəlb etməyə çalışıblar. Eyni zamanda, sosial şəbəkələrdə yayılan şəkillərdə fotoşop effekti ilə insanların sayının artırılmasına cəhd göstərirlər ki, pul aldıqları Qərb dairələrinin qarşısında öhdəliklərinə əməl etdiklərini nümayiş etdirsinlər.

Daha bir nüans isə özlərini “ana müxalifətin liderləri” kimi cəmiyyətə zorla sırımağa səy göstərən AXCP-”Milli Şura” və Müsavat yetkililərinin xalqı itaətsizliyə çağırmaları fonundakı çıxışları oldu. Beləliklə, rüsvayçı və fiaskoya uğramış mitinqlərin ayrı-ayrılıqda mənzərələrinə bir daha nəzər salaq.

### “Milli Şura”nın “demokratları” bu dəfə radikal dindarlar cildində

Sentyabrın 17-də keçirilən “Milli Şura”nın mitinqi yağışlı günə təsadüf etdi və mövcud vəziyyətdən belə bir nəticə hasil olundu ki, hətta yüngül hava şıltaqlığı belə onların ciddi siyasi proseslərlə məşğul olmadıqlarını sübuta yetirmiş oldu. Vəziyyətin onların xeyrinə olmadığını görən Ə.Kərimli-C.Həsənli cütlüyü isə vəziyyətdən çıxmaqdan ötrü icazəli mitinqdə təxribat törətməyə cəhd göstərdilər. Bunun üçün isə, onların pulla ələ aldıqları radikal dindarlardan ibarət muzdlular, necə deyərlər, qulluqlarında dayanmışdılar. Çünki “Milli Şura”nın mitinqində radikal dindarlar itaətsizlik çağırışları səsləndiriblər ki, bu şüarların əvvəlcədən hazırlanması da sirr deyildi.

Məsələn, “Milli Şura”nın mitinqində radikal islamçıların ideoloqlarından biri, İslam partiyasının funksioneri Rövşən Əhmədov hazırda Nardaran hadisələrinə görə həbs olunmuş Taleh Bağırzadənin müraciətini oxuyub. T.Bağırzadə, faktiki olaraq, əhalini müqavimətə, itaətsizliyə və qarşıdurmaya çağırıb.

### Azərbaycanın dövlət bayrağının təhqir edilməsinin ardınca Ə.Kərimli-C.Həsənli cütlüyü təxribatdan istifadə etməyə çalışsa da, buna nail ola bilmədi!

Maraqlıdır ki, “Milli Şura”nın mitinqində terrorda günahlandırılan, 7 nəfərin ölümünə səbəbkar olan şəxsin çıxışı və radikal çağırışlarının səsləndirilməsi, orada “Allahu-Əkbər” sədalarının eşidilməsi Ə.Kərimli-C.Həsənli cütlüyü üçün narahatlıq doğurmayıb. Daha dəqiq desək, “demokratiya”, “dünyəvilik” baxışlarına sahib olduqlarını iddia edən bu cılız “liderlər” indi də dini şüarlar vasitəsilə Qərb ağaları qarşısında özlərini doğrultmağa cəhd göstərdilər. Hətta bunun üçün Azərbaycanın dövlət bayraqlarına qarşı belə təhqiredici şəkildə davranaraq, onları yerə tökdülər! Nəticədə, bəlli olub ki, “Milli Şura” bununla din faktorundan geniş istifadə edərək, dini və dindarları siyasi mübarizə alətinə çevirdiyini açıq nümayiş etdirib. Ona görə də sonda Kərimli və Həsənli tərəfdarları və radikal dindarlar “Məhsul” stadionundan kənarda təxribatlara əl ataraq, asayişi pozmağa cəhd göstərdilər. Daha bir nüans isə, öz peşə borclarını yerinə yetirmələri yerinə, müxalifət jurnalistlərinin də bu təxribatlar sırasında yer almaları oldu. Əlbəttə ki, belə bir məqamda yalnız bir nəticəyə gəlmək olar - “Milli Şura” əlində olan son vasitədən, təxribatdan istifadə etməyə çalışsa da, buna nail ola bilmədi.

### Arif Hacılı niyə müsavatçıları sol küncə toplaşmağa cəhd edirdi?

Müsavat partiyasının ayın 18-də keçirilən mitinqində də rüsvayçılığın həddi-hüdudu sərhəd tanımadı. Məsələn, mitinq başlamazdan az öncə, Müsavat başqanı A.Hacılı mitinqin keçirildiyi stadiona nə qədər insanın toplaşdığını təşkilatçılardan soruşub. Aksiya təşkilatçıları gözlədiklərindən az adamın olduğunu bildiriblər. Mitinq başlandıqdan sonra isə adam sayının az olması A.Hacılının aksiya təşkilatçılarına vacib tapşırıq verməyə məcbur edib.SİA-nın mitinqi müşahidə edən əməkdaşı məlumat verib ki, Müsavat başqanı adamların bir yerə - tribunanın sol küncünə toplaşmalarını tələb edib. O, bununla vəziyyətdən çıxış yolu kimi “kütlə” görüntüsü yaratmağa cəhd edib. Lakin bu vasitə də mitinqin çoxsaylı görünməsinə imkan verməyib.

### İsa Qəmbərin qaniçənlik, vəhşilik, qeyri-insanilik və murdarlıq nümayiş etdirməsi haradan qaynaqlanır?

Aksiyadakı çıxışlar da mitinqin mövzusundan kənar məsələlər ətrafında quruldu ki, burada partiyanın sabiq baqşanı İ.Qəmbərin canfəşanlığı, nəticədə, onun iç üzünün çirkablıqlarını ifşa etdi. Belə ki, dövlətin yürütdüyü demokratik siyasətə qarşı böhtançılıq, şər və qarayaxma yolu ilə kölgə salmağa cəhd edən İ.Qəmbər danışığı əsnasında özünün hakimiyyətdə olduğu dövrləri unudub. Unudub ki, məhz AXC-Müsavat cütlüyünün iqtidarı zamanı İsa Qəmbər həm Ali Sovetin sədri, həm də dövlət başçısı vəzifəsini müvəqqəti icra edən şəxs kimi ölüm hökmünün icra edilməsinə imza atıb. Bununla, o, ölüm hökmünün ləğvi istiqamətində başladılan prosesə göz yumaraq qaniçənlik, vəhşilik, qeyri-insanilik və murdarlıq nümayiş etdirmiş olub. Halbuki həmin vaxtlar post-sovet məkanında ölüm hökmlərinin ləğv olunması prosesinə başladılmışdı və ölkələr ölüm hökmünə məruz qalmış şəxslərə qarşı humanistlik göstərərək, qanunun rəsmi qəbulunu gözləyirdilər. Hələ o dövrdə AMİP sədri Etibar Məmmədov “İ.Qəmbər, sənin əlin bu xalqın qanına batıb” deyirdi. İ.Qəmbər isə bu prinsipləri ayaq altına ataraq, qeyri-insani və qeyri-demokratik addıma gedib, 10 nəfər insanın qətlinə öz murdar imzasını atıb.

Sözügedən mitinqə “demokratiya”, “insan haqları” və s. keyfiyyətlərdən dəm vuran İ.Qəmbərin məlum qərəzli fikirləri səsləndikdən sonra aksiyada iştirak edən bəzi insanlar onun simasızlığından təəccüblənərək, Müsavatın sabiq başqanına etiraz fiti səsləndirib, “Məhsul” stadionunu tərk ediblər. Zamanında ayılan iştirakçılar da anlayıblar ki, Müsavatın keçirdiyi mitinq, bilavasitə, dövlətçiliyin və Azərbaycan xalqının maraqlarına qarşı təşkil olunub.

### Fərəc Kərimlinin Müsavat başqanı kimi təqdim olunması onu göstərir ki, İ.Qəmbər A.Hacılını başqan kimi qəbul etmir

Daha bir vacib məqam nəzərdən yayınmadı. Belə ki, İ.Qəmbər çıxışı əsnasında Fərəc Kərimlini Müsavat partiyasının başqanı kimi təqdim edib.

Daha sonra səhvini düzəldərək deyib ki, müavindir, lakin başqan da ola bilər, nə fərqi var. Göründüyü kimi, İ.Qəmbər artıq partiyadaxili problemlərini də, özü də bilmədən, azsaylı aksiya iştirakçılarının diqqətinə çatdırıb. Görünən isə budur ki, 2 il bundan öncə, narkotik vasitələrin əldə olunması və saxlanılmasına görə, həbs edilmiş Fərəc Kərimlinin Müsavat başqanı kimi təqdim olunması onu göstərir ki, İ.Qəmbər A.Hacılını başqan kimi qəbul etmir.

### Müsavatdan aprel şəhidlərinə sayğısızlıq!

Daha rüsvayçı və hiddətdoğurucu olay isə Müsavat partiyasının divan üzvü Osman Kazımovun çıxışında aprel şəhidlərinə hörmətsizlik nümayiş etdirməsi oldu. Belə ki, o, Azərbaycan Ordusunun aprel əməliyyatlarında qazandığı böyük uğuru kiçik bir hadisə` kimi təqdim edib. Müsavat üzvünün ordumuzun illər sonra qazandığı aprel qələbəsini kiçik, şişirdilmiş hadisə kimi qələmə verməsi Vətən uğrunda şəhid olan əsgərlərimizin və zabitlərimizin ruhuna böyük hörmətsizlik kimi qiymətləndirilir.

Yeri gəlmişkən, Müsavatın mitinqinin başlamasından hələ yarım saat keçməmiş, insanlar kütləvi şəkildə “Məhsul” stadionunu tərk etməyə başlamışdılar ki, bu faktın özü qaragüruhçu və antidövlətçi radikalların hansı vəziyyətdə olmalarını kifayət qədər sübuta yetirmiş oldu.

***Rövşən NURƏDDİNOĞLU***

# Prezident nəzarəti və insan hüquqları

***Prezident nəzarəti insan hüquqlarının müdafiəsi, "gizli" iqtisadiyyat, korrupsiya, cinayətkarlığa qarşı amansız mübarizə vasitəsidir. Qanunlara riayət olunmasına nəzarət, icra intizamının yüksəldilməsi, dövlət-idarəçilik mexanizminin gücləndirilməsi, şəxsiyyət, cəmiyyət və dövlətin təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş hüquq-mühafizə orqanlarının fəaliyyətinin köklü surətdə yaxşılaşdırılması da prezident nəzarətinin əsas istiqamətlərindəndir.***

Prezident nəzarəti ölkə prezidentinin konstitusiyanın imkan verdiyi səlahiyyətləri nəzərə alınmaqla, dövlət idarəçiliyi və nəzarətinin təkmilləşdirilməsinin strateji təşkili vasitəsidir. Hüquqi dövlətin əsas atributlarından olan prezident nəzarətinin həyata keçirilməsi haqqında A.Tarasov "Prezident nəzarəti" əsərində yazır: "Cəmiyyətin modernləşməsi, demokratik-hüquqi dövlətin yaradılması şəraitində dövlət nəzarəti, kriminal hadisələrlə mübarizənin gücləndirilməsi, icra hakimiyyəti orqanlarında, hüquq-mühafizə orqanlarında icra intizamının yüksəldilməsi zəruridir. Dövlət nəzarəti sistemində prezident nəzarəti şəxsiyyət, dövlət və cəmiyyətin təhlükəsizliyinin təmin olunmasına, dövlət idarəçiliyinin səmərəliliyinin yüksəldilməsinə, təkmilləşdirilməsinə və inkişafına yönəlir, müsbət siyasi, sosial-iqtisadi inkişafın yalnız zəruri şərti deyil, müəyyənedici komponentinə və qarantına çevrilir".

A.Tarasov prezident nəzarətinin hüquqi dövlət quruculuğu prosesində yerini və rolunu göstərməklə, onun hüdudlarını, strukturunu və funksiyalarını da göstərmişdir.

Prezidentlik institutu Azərbaycan üçün yeni hadisədir. Bu təsisat XX əsrin 90-cı illərində Azərbaycan müstəqillik əldə etdikdən sonra yaranmışdır. Prezidentlik institutunun funksiyalarına kadr, informasiya, hüquqi problemlər daxildir. Prezident nəzarəti hakimiyyətin digər qolları vasitəsilə həyata keçirilir. Konstitusiyaya uyğun olaraq, Azərbaycan Prezidenti dövlət başçısı kimi qanunverici, icra və məhkəmə orqanlarının həyata keçirdiyi dövlət hakimiyyətinin vəhdətini təmin edir. Prezident nəzarəti inzibati və maliyyə nəzarəti formalarında həyata keçirilir.

Prezident nəzarətinin məqsədi icra hakimiyyəti orqanlarının fəaliyyətini prezident və ümumilikdə, dövlət idarəçiliyinin tələblərinə uyğun inkişaf etdirməkdir. Nəzarət dövlət idarəçiliyinin bir hissəsidir. Prezident nəzarətinin subyektləri Prezidentin fərman və sərəncamlarının yerinə yetirilməməsinə, nəzarət funksiyalarını həyata keçirən orqandır (Prezident Administrasiyası). Prezident nəzarətinin subyektlərini təsnif edərkən, onun ali səviyyəsinə prezident, ikinci səviyyəsinə Prezident Administrasiyası, üçüncü səviyyəsinə prezidentin yerlərdəki nümayəndələri (icra hakimiyyəti) daxil edilir. Prezident nəzarətinin obyektlərinə normativ-hüquqi aktlar sistemi, konstitusiya qanunları, prezident sərəncamları və hökumət qərarları aid olunur. Bu zaman icra hakimiyyəti orqanlarının bütün sisteminə və bütün fəaliyyətinə nəzarət edilir.

Prezident nəzarətinin texnologiyasına gəldikdə, bu zaman aşağıdakı mərhələlər ayrılır: 1. İdarəetmə sisteminin nəzarət olunan hissəsinin faktik vəziyyətinin müəyyənləşdirilməsi; 2. Nəzarət zamanı əldə olunan faktların müvafiq normativ-hüquqi aktların tələbələrinə uyğunluğu ilə müqayisə edilməsi; 3. Aşkara çıxan nöqsanların qiymətləndirilməsi; 4. Pozğunluqların səbəblərinin aşkar edilməsi; 5. Müvafiq tədbirlərin görülməsi; 6. Prezident yoxlaması zamanı qəbul edilmiş qərarların yerinə yetirilməsinə nəzarət.

Prezident nəzarətinin prinsipləri aşağıdakılardır: 1. Prezidentin hüququ statusu prinsipi. 2. Nəzarətlilik prinsipi. 3. Qanunçuluq prinsipi. 4. Nəzarətlilik prinsipi. 4. Aşkarlıq prinsipi. 6. Məsuliyyət prinsipi. 7. Məqsədyönlülük prinsipi. 8. Balanslaşdırma prinsipi. 9. Sistemlilik prinsipi. 10. Vahid metodologiya prinsipi. 12. Şəxsiyyətin şərəf və ləyaqətinin müdafiəsi prinsipi. 13. Mütləq tədqiqat prinsipi.

1. Məlumdur ki, ölkə prezidenti prezident nəzarətinin təşkili siyasətinin əsas subyekti və birinci şəxsdir. Bu mənada, prezidentin hüquqi statusu prinsipi-ölkə konstitusiyası təsbit olunmuşdur. Prezident dövlət başçısı, konstitusiya, insan hüquq və azadlıqlarının qarantıdır. Yuxarıda qeyd etdiyimiz kimi, prezidentin səlahiyyətləri qanunverici, icra və məhkəmə hakimiyyətində xüsusi yer tutması ilə fərqlənir. Bununla əlaqədar, bu prinsip göstərir ki, prezident nəzarəti digər dövlət nəzarəti növləri içərisində əsas növdür.

Dövlət başçısı statusuna uyğun olaraq, prezident konstitusiya quruluşunun müdafiəsi, qayda-qanunun qorunması, suverenlik, müstəqillik, ölkənin ərazi bütövlüyünün müdafiəsi, insan və vətəndaşların hüquq və azadlıqlarının real surətdə təmin edilməsilə bağlı tədbirlər görür. Bu prinsipin əhəmiyyəti ondadır ki, prezident nəzarəti subyektlərinin həyata keçirdiyi kompleks nəzarət tədbirlərinin reallaşması üçün mühüm rol oynayır.

2. Prezident nəzarətini həyata keçirən subyektlərin mərkəzləşməsi və əlahəddəliyi prinsipinə gəldikdə, bu prinsip göstərir ki, Prezident Administrasiyasının bütün bölmələri dövlət başçısının rəhbərlik etdiyi vahid mərkəzləşmiş sistem təşkil edir. Eyni zamanda, bu bölmələrin hər birinin özünün təşkilati-ştat və hüquqi statusu var. Prezident nəzarətinin xüsusi subyektləri nəzarəti həyata keçirərək, öz işlərini hüquqi və təşkilati münasibətlərdə bir-birindən asılı olmayaraq qururlar.

3. Nəzarətlilik prinsipinin tətbiqi prezident nəzarətinin həyata keçirilməsi gedişində icra hakimiyyəti orqanları tərəfindən normativ-hüquqi aktların tələblərinin vaxtında və yerinə yetirilməsinə görə nəzarət fəaliyyətinə tətbiq edilir. Prezident nəzarəti yalnız pozuntuları aşkar etmir, bu pozuntuları aradan qaldırmaqla, həm də icra hakimiyyətinin fəaliyyətini təkmilləşdirir. Nəzarətlilik prinsipi prezident idarəetməsi və nəzarətinin bütün sisteminin fəaliyyəti və səmərəli inkişafı üçün həlledici şərait yaradır.

4. Qanunçuluq prinsipi qanuna uyğun olaraq, normaların məcmusundan ibarət hüquqi qaydalar yaranmasına xidmət edir. Universal hüquqi prinsip olan qanunçuluq prinsipi öz normativ təcəssümünü konstitusiyanın müddəalarında tapmışdır. Bu prinsip sistemli, çoxaspektli, prezident nəzarətinin subyektlərini və nəzarət obyektlərini əhatə edən prinsipdir.

5. Aşkarlıq prinsipi demokratik cəmiyyətlərdə nəzarətin nəticələrinin və dövlət idarəçiliyindəki vəziyyətin ictimaiyyətə çatdırılmasında əsas atributlardan biridir və bu prinsip icra hakimiyyəti orqanlarının fəaliyyətinin və hüquq-mühafizə işçilərinin aşkarlığı, nəzarətin nəticələri haqqında məlumatların vətəndaşlara çatmasının mümkünlüyünü nəzərdə tutur.

6. Məsuliyyətlilik prinsipi göstərir ki, prezident nəzarətinin məsuliyyəti birinci dərəcəli əhəmiyyət kəsb edir. Çünki onların işlərindən adekvat nəticələrindən, təkliflərindən və reallaşmasından yalnız prezident nəzarəti və idarəetməsinin təkmilliyi və səmərəliliyinin artması deyil, icra hakimiyyəti orqanlarının fəaliyyətinin nəticələri də asılıdır.

7. Məqsədyönlülük prinsipi nəzarət olunan vəzifələrin müəyyən məqsədlərə, ağıllılığa, rasionallığa, praktiki və nəzəri əsasa uyğun gəlməlidir. Bu prinsipin tətbiqi qanunçuluq prinsipilə ziddiyyət təşkil etməməlidir.

8. Səmərəlilik prinsipi aşağıdakıları nəzərdə tutur:

1) Prezident nəzarətinin həyata keçirilməsi nəticələrinin faydalı effekti və məsrəfləri arasında optimal qarşılıqlı münasibətlər;

2) Lazımsız məsrəflərin olmaması;

3) Minimal məsrəflərlə ən yaxşı nəticələrin əldə edilməsi.

9. Balanslaşma prinsipi prezident nəzarətinin bütün subyektinin nəzarət fəaliyyətinin qüvvədə olan normativ-hüquqi bazaya uyğunluğu məqsədi güdür.

10. Sistemlilik prinsipi icra hakimiyyəti orqanlarının fəaliyyətinə görə, prezident nəzarəti sisteminin mövcudluğunu irəli sürür.

11. Vahid metodologiya prinsipi prezident nəzarətinin səmərəliliyini təmin edən ümumi informasiya - hüquqi və metodik bazanın mövcudluğunu nəzərdə tutur.

12. Şəxsiyyətin ləyaqət və şərəfinin qorunması prinsipi nəzarət zamanı heç kəsin zorakılığa, qəddar münasibətə məruz qalmamasını tələb edir: çünki konstitusiyada şəxsiyyətin yaşamaq, ailə və şəxsi sirlərinin toxunulmazlığı hüququ, xidməti vəzifəsini yerinə yetirərkən, öz şərəf və ləyaqətini qorumaq hüququ təsbit olunmuşdur.

13. Mütləq təhqiqat prinsipi prezident nəzarəti gedişində icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən baş verən qanunsuzluqlarla əlaqədar tətbiq edilir. Bu zaman prezident müvafiq normativ-huquqi sənədlər əmrlər, sərəncamlar verir.

Beləliklə, prezident nəzarəti dövlət nəzarətinin zəruri, mütləq mühüm strateji ünsürlərindən biri olub, hüquqi dövlət quruculuğunun əsas hakimiyyət qollarından olan icra hakimiyyəti orqanlarının fəaliyyətinin və idarə olunmasının gücləndirilməsinə xidmət edir. Prezident nəzarəti gedişində bütün hakimiyyət qolları və vəzifəli şəxslərin cəmiyyət və dövlət qarşısında məsuliyyəti artır. Azərbaycan Respublikası Prezidenti konstitusiya səlahiyyətləri əsasında hüquqi dövlət quruculuğu gedişində baş verən pozuntuları aradan qaldırır, onun perspektiv inkişafı üçün səmərəli tədbirlər görür.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 23 sentyabr

## Adı yeməkdir, özü narkotik - asılılıq yaradır

Amerikalı mütəxəssislər Devid Lüdviqin başçılığı ilə maraqlı bir tədqiqat aparıblar. Könüllüləri zülal, yağ və karbohidratların miqdarı eyni olan kokteyllərə qonaq ediblər. Yalnız onlardan bir qrupunda qlikemik indeks daha çox olub. Məlum olub ki, yüksək qlikemik indeksli kokteyllər adamda aclıq hissi yaradır və baş beyində “həzz mərkəzi” adlanan sahənin işini stimullaşdırır. Beynin məhz bu hissəsi insan narkotik maddələr qəbul edərkən də aktivləşir. D.Lüdviq bildirir ki, yüksək qlikemik indeksli ərzaqlar (məsələn, bulka, çips, tost, pivə, xurma, kreker, kartof, qabaq, şokolad batonları və s.) eyni zamanda həzz və aclıq hissi yaradaraq insanı çox yeməyə sövq edir və bu səbəbdən də çəki artır.

## Bu qadınlar xəyanəti bağışlayırlar

Adnan Menderes Universitetinin tədqiqatçı-professor heyətinin apardığı araşdırma sübut edib ki, qadınların yaşı evlilik zamanı xoşbəxtlikdə böyük rol oynayır. 34 cütlük üzərində aparılan araşdırma gec evlənən qadınların daha xoşbəxt olduqlarını göstərib. Üstəlik, 30 yaş civarında ailə quran qadınlar ailə içində yaranan problemi təkbaşına aradan qaldıra bilirlər. Bundan başqa, “Hansı halda evliliyinizi xilas etmək üçün mübarizə apararsınız” sualına da qadınların 82 %-i “mütəmadi bir hal almadığı halda xəyanət belə olarsa, mübarizə apararam” deyib. Bu yaşda evlənən qadınlar işin içinə təzyiq, cinsi və fiziki zorakılıq girmədiyi müddətcə evliliyi davam etdirirlər.

## Beyin qocalma prosesi ilə mübarizə apara bilər

Qocalma prosesində koqnitiv funksiyalar zəifləyir. “The Times of India” saytı xəbər verir ki, Almaniyanın Rur Universiteti mütəxəssislərinin apardığı tədqiqat beynin qocalma prosesinin qarşısını ala bilmək imkanını üzə çıxarıb. Tədqiqatçılar aşkar ediblər ki, yaşla əlaqədar olaraq insanın hadisələri kateqoriyaya ayırma bacarığı dəyişir. Yaşlı adamlarda informasiyanı təsnif etmək, diqqəti bir məsələdən digərinə yönəltmək daha çətin olur. Lakin beyin bunu kompensasiya edir. Məlum olub ki, yaşlı insanlar cavanlardan fərqli olaraq incəliklərə daha çox diqqət yetirirlər. Eksperiment aparan alimlər könüllülərə müxtəlif rəngli dairələri iki qrupa ayırmağı məsləhət görüblər. Bəzi dairələr oxşar olub, yerdə qalanlar isə kəskin fərqlənib. Eksperiment prosesində əks əlaqə iştirakçılara dairənin hansı kateqoriyaya aid olmasını başa düşməkdə kömək edib. Tədqiqatçılar könüllülərin cavablarını qeydə alıb, habelə onların beyin fəallığını və gözlərinin hərəkətini izləyiblər.

Mütəxəssislər müşahidə ediblər ki, gənc və yaşlı iştirakçılar oxşar dairələri qruplar üzrə asanlıqla ayırıblar. Lakin böyük fərqə malik dairələr meydana çıxanda yaşlılar çətinlik çəkiblər. Beynin skan edilməsi göstərib ki, könüllü yaşlılar seçim zamanı gənclərdən fərqli olaraq incəliklərə daha çox diqqət ayırıblar. Eksperimentin nəticələri göz hərəkətlərinin təhlilindən sonra təsdiqlənib.

## ELAN


Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Bakı şəhəri, Xəzər rayonu, Binə qəsəbəsi, Nizami Gəncəvi küçəsi, 8-ci döngə, ev 26D ünvanında yaşayan Alışova Mənzər Sərxan qızının adına rəsmiləşdirilmiş seriyası RX, nömrəsi 0900402 olan 71 kvadratmetr sahəsi olan xüsusi mülkiyyət sənədi - ÇIXARIŞ (kupça), reyestr nömrəsi 003013030281-10301 olan TEXNİKİ PASPORT itdiyi üçün etibarsız sayılır.

ADPU-nin Texnologiya ixtisası üzrə II kurs tələbəsi Həsənli Lamiə Xəyyam qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


## Güləşçilərimiz hərbçilərin dünya çempionatında gümüş medal qazanıb




Makedoniyanın paytaxtı Skopyedə Beynəlxalq Hərbi İdman Şurasının (CİSM) himayəsi altında təşkil edilən güləş üzrə hərbçilərin 31-ci dünya çempionatında ikinci günün yarışları başlayıb. AZƏRTAC xəbər verir ki, turnirin ikinci günündə Azərbaycanın sərbəst güləş üzrə üç idmançısı yarışlara qatılıb. Çempionatda 74 kiloqram çəki dərəcəsində mübarizə aparan Əşrəf Əliyev bürünc medal qazanıb. O, üçüncü yer uğrunda görüşdə Hindistan idmançısına 2:0 hesabı ilə qalib gəlib.

## Şahmatçılarımız “Baku-open-2016” turnirinin liderlər qrupundadırlar




Noyabr... Novxanıdakı “AF-Hotel” otelində şahmat üzrə beynəlxalq “Baku-open-2016” turniri davam edir. AZƏRTAC xəbər verir ki, festivalın “A” qrupunda 4 turdan sonra hərəsi 3,5 xal toplamış Azərbaycan qrossmeysteri Nicat Abbasov, ukraynalı Stanislav Boqdanoviç, amerikalı Aleksandr Lenderman və rusiyalı Sənan Syuqirov liderlik edir. Yeddi oyunçu liderlərdən yarım xal geri qalır. Onların arasında Azərbaycan nümayəndələri Vüqar Rəsulov, Zaur Məmmədov, Misrəddin İsgəndərov və Ülvi Bacarani də var. “B” qrupunda iki şahmatçı - Azərbaycan nümayəndəsi Orxan Babazadə və İran təmsilçisi Arya Omidi yüz faiz nəticə göstərib. 11 idmançının hərəsinin aktivində 3,5 xal var. Xatırladaq ki, “A” qrupunda 9 ölkədən 52 şahmatçı, o cümlədən 18 qrossmeyster, “B” qrupunda 6 ölkədən 128 oyunçu iştirak edir. Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilmiş turnir 9 turdan ibarət olmaqla İsveçrə sistemi üzrə keçirilir. “Baku-open-2016” festivalının ümumi mükafat fondu 25 min dollardır.

## “Bild” nəşri: “Bavariya” Levandovski ilə müqaviləni yeniləyir



“Bavariya” polyak əsilli futbolçusu Robert Levandovski ilə müqaviləni yeniləyəcək. Məşhur “Bild” nəşrinin yaydığı xəbərə görə, artıq bununla bağlı tərəflər arasında razılıq əldə olunub. Razılığa əsasən, polşalı hücumçu ilə 5 illik yeni müqavilə imzalanacaq. T.Levandovskinin yeni müqavilə imzaladıqdan sonra klubun ən yüksək maaşlı oyunçusu olacağı iddia edilir. Qeyd edək ki, “Bavariya”da hazırda ən yüksək maaşı Tomas Müller alır. O, ilinə 15 milyon avro qazanır.

## UEFA prezidenti Bakıya gəlir



AFFA-nın prezidenti Rövnəq Abdullayevin dəvətinə əsasən UEFA-nın prezidenti Aleksander Çeferin və baş katib Teodor Teodoridis Bakıya səfər edəcək. Qol.az-ın AFFA-nın saytına istinadən yaydığı xəbərə görə, onlar UEFA AVRO 2020-nin 4 oyununun ev sahibi şəhəri Bakının loqosunun təqdimat mərasimində iştirak etmək üçün paytaxtımıza gələcək. Mərasim sentyabrın 30-da Bakı Olimpiya stadionunda keçiriləcək.

## Dursun Özbək: “Qalatasaray”ın 230 milyon dollar borcu var



Hazırda 230 milyon dollar borcumuz var. Ən böyük çətinliyimiz banka olan borcumuzdur. Axar.az xəbər verir ki, bu açıqlama ilə “Qalatasaray”ın prezidenti Dursun Özbək çıxış edib. 22 sentyabrda klub tarixinin ən böyük toplantısının keçiriləcəyini qeyd edən Özbək keçmişdə imzalanan müqavilələrdən dolayı maliyyə çətinliyinin hökm sürdüyünü bildirib.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in kompüter mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500